www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 fevral 2019-ci il Çərşənbə axşamı № 27 (7197) Qiyməti 60 qəpik

## Xəbər

**Donuz qripindən marta necə sağ çıxaq- virusoloqlardan ilginc açıqlamalar**

yazısı səh.10-da

## Gündəm

**"Çağırsa qəzet, gələrəm redaksiyaya" - tanınmışlarla çap mediasının durumu müzakirə olundu**



Ölkənin öndə gələn simaları "Yeni Müsavat"ın çağırışına səs verdilər

yazısı səh.8 ,9 və 16-da

**Tanınmış yazarlardan Siyavuş Novruzova etiraz gəldi**

yazısı səh.3-də

**"Heç bir seçkidən imtina etmək olmaz" - Mirmahmud Mirəlioğlu**

yazısı səh.5-də

**Tale Bağırzadənin işgəncə iddiası təsdiqlənmir**

yazısı səh.13-də

**DİN-dən "Lady Sharm"la bağlı açıqlama - 4 nəfər tutuldu**

yazısı səh.12-də

**Qazi baş redaktor ona qarşı cinayət işindən danışdı**

yazısı səh.13-də

**Sərdar Cəlaloğlu AXH-dəki partiyaları başına toplayır**

yazısı səh.5-də

**Dünyada biznesmen-siyasətçilərin hakimiyyətləri batır**

yazısı səh.4-də

**İrəvanın Qarabağ danışıqlarını pozmağa çalışmasının pərdəarxası**

yazısı səh.11-də

**Ayın 10-dan energetik içkilər və siqaret bahalaşacaq**

yazısı səh.6-da

**Avropada murdar ət kabusu: səfərdə olanda nə yeyək...**

yazısı səh.10-da

**Netanyahu yenə İranı hədələdi - 3 səbəb**

yazısı səh.15-də

# QARABAĞ - QAFQAZIN "QORDİYEV DÜYÜNÜ": QƏRB TƏLƏSİR, RUSİYA İSƏ...

Paşinyan Qərbi "İki stul"da oturmadığına inandıra bilmədi; Putinin emissarının İrəvan səfərinin hədəfi dəqiqləşdi - Kreml nədən narahat imiş? **"Alman dalğası"**: "Erməni baş nazir qısa zamanda uğura nail olmasa..."




yazısı səh.7-də

# Həbsdə əmlakını məhkəmədən gizlədən məmurun başı dərddə

"Aztelekom" İstehsalat Birliyinin sabiq baş direktoru Məhəmməd Məmmədov bacısı oğlunu niyə tutdurubmuş?

yazısı səh.6-da



*Fazil Mustafa:*
**"Hakimiyyət daha çox maraqlı olmalıdır ki, aqressiya azalsın"**

yazısı səh.5-də



**Deputat Musa Quliyev müxalifəti "seçki dueli"nə çağırdı**

yazısı səh.4-də



**Etibar Pirverdiyev vəzifədən getdi, "Expressbank"ın da "işığı söndü"**

yazısı səh.3-də

## Şəhər və rayonlarda binaların dam örtüyünün təmirinə 21,7 milyon manat ayrıldı

**Prezident İlham Əliyev fevralın 4-də "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

AZƏRTAC xəbər verir ki, 379 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.65-ci bəndində göstərilmiş məbləğin 21 milyon 685 min 830 manatı Gəncə, Sumqayıt, Şəki, Şirvan, Qazax şəhər və rayonlarının icra hakimiyyətlərinə ayrılıb.

Gəncədə 50, Sumqayıtda 263, Şəkidə 28, Şirvanda 30, Qazaxda isə 8 ədəd 3-5 mərtəbəli çoxmənzilli binanın dam örtükləri təmir olunacaq.

## İtirilmiş 5 sənəd sahibini gözləyir

**"Azərpoçt" MMC tərəfindən reallaşdırılan sosial layihə çərçivəsində istifadəyə verilən "Poçtap" xidməti artıq 2 ildir sənədini itirənləri sevindirir. "Poçtap" sayəsində itirilmiş sənədlər tapılaraq sahibinə qaytarılır. Bu günə qədər "Azərpoçt"un filial və şöbələrində 1142 sənəd qəbul olunub.**

Trend MMC-yə istinadən məlumat verir ki, sahibinə çatdırılan sənədlərin sayı 364, aidiyyəti üzrə qurumlara təhvil verilən sənədlərin sayı isə 773-dür. Hazırda poçt filialları və şöbələrində 5 sənəd sahibini gözləyir.

Bu xidmət çərçivəsində tapılmış sənədlər aidiyyəti üzrə poçt müəssisələri tərəfindən qəbul olunur, sahibləri axtarılır, tapıldığı halda sənədlər sahiblərinə, əks təqdirdə aidiyyəti orqana təhvil verilir. Belə ki, istənilən şəxs təsadüfən tapdığı sənədi hər hansı poçt qutusuna ata və ya poçt şöbəsinə anonimliyini qorumaq şərtilə təhvil verə bilər. Poçta daxil olan sənəd müvafiq proqramda qeydiyyata alınır və avtomatik şəkildə sənəd sahibinin əlaqə məlumatları axtarılır. Şəxsin kontaktları tapılarsa, həmin şəxslə əlaqə yaradılır.

Sənədini itirən şəxs "Poçtap" xidmətinin www.pochtap.az internet səhifəsindən, "169" saylı çağrı mərkəzindən və ya istənilən poçt şöbəsindən sənədinin tapılıb-tapılmamasını öyrənə, tapılmadığı təqdirdə itirilən sənədlə bağlı elan yerləşdirə bilər. Belə ki, http://www.pochtap.az internet səhifəsində "Sənədimi itirmişəm" bölməsini seçməklə müvafiq xanalara zəruri məlumatları daxil edərək, itirilən sənəd barədə elan yerləşdirmək mümkündür. Bundan başqa, itirilən sənədlə bağlı "Poçtap" xidmətinin bazasında məlumatın olması, sənədin hazırkı statusu, hansı poçt filial və şöbəsində olması, saxlama müddəti ilə bağlı məlumat almaq üçün "Axtar" bölməsinə müvafiq məlumatları daxil edərək axtarış etmək mümkündür. Əgər itirilmiş sənəd tapılıbsa və sistemdə görünürsə, dövlət rüsumunu ödədikdən sonra vətəndaş "169" çağrı mərkəzinə zəng edərək tapılmış sənədi ona yaxın poçt məntəqəsinə yönləndirə bilər. Sonda vətəndaş yönləndirdiyi poçt məntəqəsindən gedib sənədini götürə bilər.

"Poçtap" xidməti çərçivəsində sənədi tapılan şəxslər 1 manat 80 qəpik xidmət rüsumu ödəyərək onu təhvil ala bilər. Sənədin poçt müəssisələrində saxlanılma müddəti 30 gündür. Vətəndaş sənədinin öz istəyi ilə hansısa ünvana çatdırılmasını istəyirsə, bu zaman rüsum "Azərekspresspoçt"un xidmət tariflərinə uyğun hesablanır.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# "Kosmik sənaye Azərbaycanda ən prioritet istiqamətlərdən biridir" - Prezident İlham Əliyev

**Prezident İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.**



Bu barədə Trend-ə Prezidentin Mətbuat Xidmətindən məlumat verilib.

Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythinger dövlətimizin başçısına onu qəbul etdiyinə görə minnətdarlığını bildirdi. Kristian Faythinger ölkəmizə ilk dəfə səfərindən məmnunluğunu ifadə edərək, Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən Kristian Faythinger bildirdi ki, bu gün Beynəlxalq Astronavtika Federasiyasına 68 ölkədən 368, o cümlədən Azərbaycandan olan 3 təşkilat daxildir. Qonaq rəhbərlik etdiyi qurumun hər il Beynəlxalq Astronavtika Konqresini keçirdiyini vurğuladı və belə bir önəmli faktı xatırlayaraq dedi ki, bu cür tədbirlərdən biri 1973-cü ildə Bakıda keçirilib. Daha sonra o, Azərbaycanda kosmik sənayenin uğurla inkişaf etdiyini və bu sahədə ölkəmizin son vaxtlar əldə etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı 1973-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Beynəlxalq Astronavtika Federasiyasının Bakıda keçirilən XXIV konqresini məmnunluqla xatırladı və o zaman həmin tədbirin beynəlxalq əhəmiyyətli bir hadisəyə çevrildiyini, konqresdə məşhur kosmonavtların və astronavtların iştirak etdiyini vurğuladı. Azərbaycanda kosmik sənayenin inkişafına toxunan Prezident İlham Əliyev bu sahənin ölkədə ən prioritet istiqamətlərdən biri olduğunu dedi və Azərbaycanın dünya kosmik ailəsinə daxil olmasını məmnunluqla qeyd etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "Onlar məni də aldadıb" - İsfəndiyar Axundov ittihamlara cavab verdi

**Ölkənin ən böyük tikinti maqnatlarından olan Şərurlu İsfəndiyar kimi tanınan İsfəndiyar Axundov haqqında ölkə mətbuatında yenidən ittiham dolu yazı dərc olunub. Virtualaz.org saytının yaydığı məlumatda qeyd edilir ki, Ş. İsfəndiyar öz çoxsaylı MMC, MTK-ları və partnyor-şirkətlərinin köməyi ilə alıcılarını qarət etməkdə davam edir. Sayt yazıb ki, Şərurlu İsfəndiyarın və şirkətlərinin daha bir qazanc üsulu var -uydurulmuş hər hansı bəhanə ilə artıq praktik olaraq hazır, haqqı ödənilmiş mənzilləri onların əlindən almaq, özü də pullarını qaytarmadan.**



Saytda aşağıdakılar qeyd edilib: "Bakı sakini Tariyel Seyidov və yaşayış binasının tikintisinə sərmayə qoyan daha bir neçə vətəndaş məhz bu cür fırıldaqçılığın qurbanı olublar. Necə olubsa, məskunlaşmadan az əvvəl mənzillər Şərurlunun qardaşı oğlu Eldəniz Axundovun adına yenidən qeydiyyatdan keçirilib. Məhkəməyə müraciət etmək, həmişəki kimi, kömək etməyib - məhkəmələr E. Axundovun həmin 14 mənzilə hüququnu tanıyaraq, bu soyğunu qanuniləşdiriblər.

Aldadılmış investorların virtualaz.org-a yazdıqları kimi, indi ev inşa edən və mənzil satan Hom-Paş Prestij MTK ilə Azərbaycanın baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi məşğul olur.

Amma ümidini itirmiş insanlar artıq bu işin ədalətlə nəticələnəcəyinə inanmırlar. Baxmayaraq ki, dələduz təşkilatkarla danışmağın çəmini yaxşı bilən E. Axundov and-aman edib ki, mənimsənilən mənzillərə görə heç nə ödəməyib..."

Sayt iddia edir ki, Hom-Paş Prestij-ə İsfəndiyar Axundovun öz fırıldaqları ilə məşhur olan türk əsilli partnyoru Hikmət Yqiddel rəhbərlik edir.

Məsələ ilə bağlı İsfəndiyar Axundovla əlaqə saxladıq. O, "Yeni Müsavat"a bildirdi ki, yazılanlara dair heç bir məlumatı yoxdur:

"Kimin nə yazması barəsində məndə məlumat yoxdur. Ancaq onu deyim ki, Hom-Paş Prestij mənim özümü də aldadıb. Həmin şirkətin sahibi türk idi. Camaat kimi bizi də aldadıblar. Mənim də onlardan alacağım var. Camaatı aldadan həmin şirkətdir. O, hər kəsi aldadıb, eləcə də məni. Bu məsələdə mənim adımı hallandırmaq doğru deyil. Faktiki olaraq adıçəkilən MTK ilə bağlı məhkəmə prosesi gedir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## "Bakıdakı uşaq bağçalarında qızılca və "donuz qripi"nə yoluxma halı qeydə alınmayıb" - BŞİH

**Bakı şəhərindəki uşaq bağçalarında qızılca və A (H1N1) virusuna ("donuz qripi") yoluxma faktı qeydə alınmayıb.**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində olan Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsindən bildirilib.

Qeyd olunub ki, bununla bağlı mütəmadi profilaktik tədbirlər görülür.

## Maqnit qasırğası gözlənilir - xəbərdarlıq

**Fevralın 7-8-də geomaqnit qasırğasının baş verəcəyi gözlənilir. Maqnit sahəsinin Z komponentinin istiqaməti cənubu göstərərsə, geomaqnit həyəcanlaşması daha güclü olacaq.**

Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Elçin Babayev Trend-ə bildirib ki, hazırda Günəşin görünən diskində heç bir Günəş ləkəsi müşahidə olunmur və gündüz ulduzumuz olan Günəş alışmalar generasiya etməyə qadir deyil.

E.Babayev deyib ki, Günəşin səthində orta ölçüyə malik növbəti tac dəliyi formalaşıb. Tac dəliyindən yüksək sürətli Günəş küləyi (yüklü zərrəciklərdən ibarət plazma) öz başlanğıcını götürərək planetlərarası fəzaya, o cümlədən Yerə doğru yönəlmiş olur. Tac dəliyindən "əsən" Günəş plazma küləyinin təsirlərinin 7-8 fevral tarixlərində Yerə çatması gözlənilir. Həmin plazma küləyi Yer maqnetosferində həyəcanlaşma yaradacaq və nəticədə hətta zəif səviyyəli geomaqnit qasırğasının baş verəcəyi də gözlənilir. Sonuncu güclü həyəcanlaşma və qısamüddətli qasırğa fevral ayının əvvəlində baş vermişdi:

"Planetlərarası maqnit sahəsinin Z komponentinin istiqaməti cənubu göstərərsə, 7-8 fevral tarixlərində müşahidə olunacaq geomaqnit həyəcanlaşması daha da güclü olacaq. Bu gün üçün geomaqnit həyəcanlaşmasını xarakterizə edən əsas Kp indeksinin qiyməti 1-3 arasında dəyişir. Ehtimal olunur ki, 7-9 fevral tarixlərində bu qiymət qalxacaq. Hazırda atmosfer təzyiqi normadan yüksəkdir".

# Tanınmış yazarlardan Siyavuş Novruzova etiraz gəldi

**Bu günlərdə deputat Siyavuş Novruzovun jurnalistlərlə bağlı dediyi bir fikir geniş müzakirələrə səbəb olub. O qeyd edib ki, bəzi KİV-lərdə artıq bütün etik qaydaları pozurlar.**

## Xalid Kazımlı: "Bu dövlətin də, hakimiyyətin də gülünü dərən onlardır"

## Eynulla Fətullayev: "Məgər insanlar mübarizəyə yalnız mal-mülk uğrunda atılmalıdır?"

Bu halların qarşısını almaq üçün yeganə yol qanunvericilikdir: "Vətəndaşın alçaldılması, dövlətin əleyhinə fikirlər söyləmək, dövlət çevrilişinə çağırışlar, istənilən adamın istənilən fikri söyləməsi, cəzasızlıq mühiti belə vəziyyətin yaranmasına səbəb olub. İndi 5-10 nəfər ortaya düşüb dövlətçilik haqqında, dövlət quruculuğu haqqında ağızlarına gələni danışırlar. Ulu öndər Heydər Əliyev mətbuat üzərindən senzuranı ləğv etdi, qəzetlərin borcu bağlandı, bu gün Prezident İlham Əliyev mətbuata böyük diqqət göstərir, jurnalistlərə ev verilir, qəzetlərə maliyyə yardımı edilir. Jurnalistlər də təhqir yazanlara qarşı mübarizə aparmalıdır".

"Yeni Müsavat" xəbər verir ki, bu günə qədər dövlət tərəfindən evlə təmin olunan jurnalistlərin hansısa öhdəliklərinin olması barədə heç bir açıqlama verilməyib, buna eyham da vurulmayıb. **Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin rəhbəri Əli Həsənov** bu mövzu ilə bağlı verdiyi açıqlamada aşağıdakı məqamları vurğulayıb: "Ən çox haqqı, xidməti olan jurnalistlər növbəliklə evlə təmin olunacaqlar. Bu evlərin verilməsi peşənizə məsuliyyətli olmaqdan başqa heç bir öhdəlik qoymur. Ev verdiyimiz jurnalistdən tələb olunmayacaq ki, sizə mənzil verildiyinə görə İlham Əliyevi tərifləyin, müxalifəti pisləyin. Jurnalistlik misssiyanızı sizə biz verməmişik və biz də müəyyən etmirik. Biz hakimiyyət olaraq medianın inkişafına hər cür dəstək verəcəyik, amma hər şey sizdən asılıdır".

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı** dedi ki, Siyavuş Novruzovun ev alan jurnalistlərin boynuna öhdəlik qoymasına dair fikirləri təəssüf doğurur. Onun fikrincə, dövlətin öz vətəndaşına ev və avtomobil, yaxud başqa bir mükafat verməsini baş qaxıncı etmək düzgün deyil: "Jurnalistlərə evlər sovet dövründə də verilirdi. İkincisi, bu evi jurnalistlərə dövlət verib və dövlətə güldən ağır söz deyənlər qarşısında, ev alıb-almamasından asılı olmayaraq, həmişə vətənpərvər jurnalistləri görüblər və yenə görəcəklər. Üçüncüsü, bu dövlətdən hakimiyyətdən barınıb ev almağa qalsa, Bakıda onlarla, hətta yüzlərlə evi olan məmurlar var və karp balığı kimi suyun dibinə çəkiliblər, onları tapmaq və söyüş müxalifəti ilə "ön cəbhə"yə onları sürmək lazımdır. Çünki bu dövlətin də, hakimiyyətin də gülünü dərən onlardır. Dördüncüsü, söyüş söyənlərə söyüş söyməyin özü də mədəniyyətsizlikdir və yetkin insanı buna sövq etmək olmaz. Beşincisi, bu söhbət artıq hər kəsi bezdirən bir mərhələyə gəlib çıxıb və təəssüf doğurur...."


Xalid Kazımlı


Eynulla Fətullayev

Jurnalistlər arasında S.Novruzovun bu açıqlamasına etiraz edənlər də az deyil. **Virtualaz.org saytının rəhbəri Eynulla Fətullayev** mövzu ilə bağlı aşağıdakıları deyib: "Hakim partiyanın ən böyük səhvi - dəyərlərin materiallaşdırmasıdır. YAP-dakı Siyavuş bəyanat verib ki, bəs bu iqtidardan bəhrələnən insanlar hökuməti müdafiə etməlidir. Bu nə yanaşmadır? Bu nə alverçi təfəkkürdür? Bəs dəyərlər? Məgər Heydər Əliyev fəlsəfəsinin dəyərləri yoxdur? Məgər insanlar mübarizəyə yalnız mal-mülk uğrunda atılmalıdır? Bəs ədalət, bərabərlik, azadlıq, insan səadəti? Faciə ondadır ki, bu fikri söyləyən insan yalnız millət vəkili deyil, Heydər Əliyevin uzun və fədakar mübarizəsi nəticəsində yaratdığı Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunub. Görün hakim partiya hardan hara gəldi - xalq tribunu Sirus Təbrizlidən mənzili partiya dəyərinə çevirmiş plebey Siyavuşa qədər gedən yol... Çox təəssüf!!! Məncə, Siyavuş öz siyasi fəaliyyətində ən qüsurlu bəyanatını verdi. Ay zavallı insan, sən çayxanada və ya kababxanada zarafat etmirsən, bütöv bir xalq qarşısında çıxış edirsən! Bundan sonra YAP gənclər arasında hansı dəyərləri təbliğ edəcək?"

**"Yeni Müsavat" qəzetinin yazarı Jalə Mütəllimovanın** məsələyə reaksiyası daha sərt olub. O, S.Novruzova xitabən aşağıdakıları deyib: "Sizin dövlətdən oğurladığınız, yediyiniz, qazandığınız, ört-basdır edilən cinayətləriniz, övladlarınızın məlum əməlləri, fırıldaqlarınız, ədalətsizlikləriniz, insanlara divan tutmaqlığınız olmasaydı, indi bu durum yaranmazdı. Heç orduxanlar da olmazdı. Əvvəlcə dövlətə və Prezidentə olan borcunuzu bir zəhmət sizlər ödəyin. Onsuz da bircə ovuc qalan media adamları dövlətinin də, onun siyasi siması olan indiki Prezidentin də, proseslərin də bacardıqları qədər təəssübündədir. Öz dərdinizi çəkin, balanslı canınıza, nəhayət ki, bir azca əziyyət verin. Qazandıqlarınızın qarşılığında nəsə edin, mərd olun. Ölkənin gerçək media adamları, satılmayan, oğru olmayan, cibgirlik bacarmayan, dövlət, vətən, vətəndaş sevgisi olan jurnalistlər onsuz da ağılları kəsəndən cibləri boş, dövlət deyə-deyə qocalıblar.."

J.Mütəllimova eyni zamanda qeyd edib ki, söymək, ümumiyyətlə, normal insan işi deyil: "Yox, əgər söymək istəyirsə, qoy Siyavuş Novruzov özü söysün. Nə də olsa mənim etdiklərim sevgidən və sayğıdan olub. Maddi olaraq hər hansı qarşılıq görməmişəm və istəməmişəm. Amma elə Siyavuş Novruzov daxil, yüzlərlə "dövlət adamı" var ki, addımına görə də ödəniş alıb dövlətdən. O üzdən əslində "söy ki, söyənsən" layihəsinə start vermək gərəkdirsə, bunu birinci parlamentdə Novruzov tipli deputatlar edə gərək...

Bu dövlətin bir problemi də elə sizlərsiniz, vəziyyət yarananda ağzınızın açılmasındansa, açılmaması məsləhət olan adamlar..."

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Etibar Pirverdiyev vəzifədən getdi, "Expressbank"ın da "işığı söndü"


Etibar Pirverdiyev

## Əkrəm Həsənov: "Pirverdiyev ölkənin enerji sistemini böyrü üstə qoyub getdiyi kimi, onun adına bağlı olan biznes strukturları da həmin duruma düşüb"

**Azərbaycanda fəaliyyət göstərən banklar 2018-ci ilin yekun hesabatlarını açıqlayıblar. Ötən ili ən böyük mənfəətlə - 425 milyon 841 min manatla "Azərbaycan Beynəlxalq Bankı" yekunlaşdırıb, ən böyük zərərlə qapadan isə 250 milyon 478 min manatla "VTB Bank (Azərbaycan)" olub. Bu haqda azpolitika.info xəbər yayıb. Maraqlıdır ki, ən çox zərər edən 2 bank Rusiya banklarının Azərbaycandakı törəmələri olan "VTB Bank (Azərbaycan)" və "Nikoyl Bank"dır. Yerli bankların arasında isə birinci yerdə 23 milyon 755 min manat zərərlə "Expressbank" qərarlaşıb.**

Əslində bu bankın ötənilki faiz və qeyri-faiz gəlirlərində, eləcə də ümumi gəlirlərində 6 milyon manata yaxın artım müşahidə olunub və bu göstərici 2017-ci ildəki 38 milyon 719 min manatdan 44 milyon 497 min manata yüksəlib. Bankın faiz gəlirləri kifayət qədər yüksək olsa da, ehtimal olunan kredit itkiləri üçün 24 milyon 988 min manatlıq ehtiyat yaradılması onun 2 milyon 155 min manat faiz zərəri etməsilə nəticələnib. Bu isə ciddi məbləğdə riskli kreditlərin mövcudluğundan xəbər verir. Ancaq ötən il əgər böyük məbləğdə zərər açıqlayan "VTB Bank Azərbaycan" və "Nikoyl Bank"ın bu göstəriciləri əsasən ehtimal olunan kredit itkiləri üçün ehtiyatın yaradılmasına ayrılan iri vəsaitlərlə bağlıdırsa, "Expressbank"ın zərərində inzibati və ümumi xərclərinin 26 milyon 128 min manat təşkil etməsinin xüsusi rolu var. Çünki bu xərclərdən öncə bank 2 milyon 373 min xalis gəlir əldə edib ki, burada da "Expressbank"ın 4 milyon 528 min manat qeyri-faiz mənfəəti əldə etməsinin əhəmiyyətli rolu var. Ehtimal olunan kredit itkiləri üçün ehtiyatın yaradılmasına, eləcə də ümumi və inzibati xərclərə böyük məbləğlər ayırması nəticəsində "Expressbank" yerli banklar arasında zərərin miqdarına görə liderə çevrilib. Xatırladaq ki, sözügedən bank 2017-ci ili 2 milyon 26 min manat xalis mənfəətlə tamamlamışdı. Bankın cari balans kapitalında da azalma müşahidə olunub. Belə ki, 2017-ci ildə 144 milyon 317 min manat cəmi balans kapitalına malik olan bankın bu göstəricisi 119 milyon 348 min manata enib. Lakin bütün bunlarla yanaşı, bankın cəmi aktivləri 26 faizə yaxın artaraq 395 milyon 204 min manata çatıb. Müştərilərə verilən kreditlərin həcmində də 50 milyon manatdan çox artım var. Həmçinin əhalinin bu bankdakı əmanətləri də 19 milyon manat çoxalıb. Digər mühüm göstəricilər olan məcmu kapitalın həcmi və adekvatlığı da kifayət qədər yüksək olub. Onu da qeyd edək ki, "Expressbank" "Azərenerji"nin sabiq rəhbəri Etibar Pirverdiyevin bankı kimi tanınır. Elə rəsmən də bankın əsas səhmdarları Priverdiyevə məxsus "AZENCO Group" MMC və Hikmət Xammədovdur. H.Xammədovun isə E.Pirverdiyevin qayını olduğu bildirilir. Bu şəxsə həmçinin "Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC-nin 98,5 faizi məxsusdur.

"Yeni Müsavat"a daxil olan məlumata görə "Expressbank" Etibar Pirverdiyev vəzifədə olduğu müddətcə bunca zərərlə işləməyib. O, vəzifədən gedəndən sonra isə bankın zərərinin artması nə ilə izah oluna bilər?

**Hüquqşünas Əkrəm Həsənov** deyir ki, "Expressbank" Etibar Pirverdiyevin himayəsində olması kimsəyə sirr deyil: "Vaxtilə "Atabank" da Fazil Məmmədovun himayəsində idi. "Expressbank" Etibar Pirverdiyevin vaxtında da zərərlə işləyən banklardan idi. Amma Etibar Pirverdiyev vəzifədə olanda bankın, digər şirkətlərinin problemlərini telefonla həll edirdi. İndi isə onun zənginə əvvəlki reaksiya da verilməz. İnanmıram ki, Pirverdiyev vəzifədən gedəndən sonra kiməsə zəng edib bankın problemlərini həll edə bilər. Ona görə də hazırda belə bir vəziyyət yaranıb. Əvvəllər belə idi ki, "Expressbank"ın qaytarılmasında problemlər olan kreditləri ilə bağlı məsələ məhkəmə müstəvisinə gedib çıxanda Etibar Pirverdiyevi eşidirdilər, bankın xeyrinə qərar verilirdi. Bu gün köhnə metodlar keçərli deyil. Təbii ki, bu halda da problemlər əvvəlki kimi həll oluna bilmir və üzə çıxır. Məlum olur ki, "Expressbank"ın xeyli problemli kreditləri var".

Əkrəm Həsənov deyir ki, mümkündür ki, Etibar Pirverdiyev vəzifədə olduğu müddətdə "Expressbank"ın problemli kreditlərini ört-basdır ediblər: "Əvvəllər də zərərlər olub, sadəcə, üzə çıxarmayıblar. Hazırda isə bankın güclü himayədarı yoxdur deyə zəng edib işləri yoluna qoya bilmir. Necə ki, ölkənin enerji sisteminə milyonlarla pul qoyulurdu, hər şeyin qaydasında olması bəyan edilirdi, bankla bağlı da eyni durum olub. Enerji sistemindəki qəza real durumu bütün çılpaqlığı ilə ortaya qoydu. Həmin qəza faktiki olaraq Etibar Pirverdiyevin adına bağlı olan bütün biznes strukturlarında da zəncirvari reaksiyaya səbəb olub. Həmin qəza ilə üzə çıxdı ki, büdcədən xərclənən o boyda pullar illərdir enerji sistemində köklü dəyişikliyə səbəb olmayıb. 1 günün içində bütün ölkə işıqsız qaldı. Etibar Pirverdiyev ölkənin enerji sisteminin böyrü üstə qoyub getdiyi kimi, onun adına bağlı olan biznes strukturları da həmin duruma düşüb".

Bununla belə, Əkrəm Həsənov deyib ki, "Expressbank"ın kadr potensialı kifayət qədər yüksəkdir, oradakı idarəetmə əksər Azərbaycan banklarında yoxdur.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Bəzən tənqidçilər hesab edirlər ki, Azərbaycanda müxalif düşərgə özünü “sözəbaxan” aparır. İqtidar onlara mitinq icazəsi verirsə, mitinq keçirirlər, vermirlərsə, razılıq almaq üçün ciddi dirəniş göstərmirlər. Bu, doğrudanmı belədir?**

# Deputat müxalifəti “seçki dueli”nə çağırdı





**Musa Quliyev:** “Müxalifətin şüarları düşmənə yox, özümüzə qarşı yönəlib”
**Hikmət Hacızadə:** “Hökumətə nə boyda teatr lazımdırsa, müxalifətə o qədər yer verir”

“Radikal müxalifət bundan əvvəlki parlament seçkilərinə qatılmadı. Daha öncəki seçkini isə uduzub. Biz demokratik cəmiyyətdə yaşayırıq və hər kəsin gücü seçkidə özünü göstərir”.

Bu fikirləri “Yeni Müsavat”a **deputat Musa Quliyev** müxalif qüvvələrin iqtidara təzyiq gücünün olmaması barədə danışarkən söylədi. Deputat təklif edir ki, müxalifət payızda keçiriləcək bələdiyyə seçkilərində iştirak eləsin və iqtidara gücünü nümayiş etdirsin: “O ki qaldı müxalifətin mitinqinin təsiri nəticəsində dövlət hansısa addımlar atır, bu, çox gülünc fikirlərdir. Dövlət idarəçiliyi təcrübəsi olanlar bilir ki, hökumət planları əvvəldən qurur, layihələr həyata keçirir. Azərbaycan hökuməti öz işini görür. Hakimiyyət hər hansı addımı kiminsə iddialarına uyğun atmır. Ona görə mitinqdən bir həftə sonra addımlar atılmır. Belə fikirlər aksiyada iştirak edənlərin aldadılması üçün bir tryukdur”.

M.Quliyev müxalifətin mitinqlərdə səsləndirdiyi şüarlara görə təəssüf edir: “Əfsus ki, müxalifətin şüarları düşmənə yox, özümüzə qarşı yönəlib. Məsələn, Gürcüstanın Axalakalaki vilayətində erməni terrorçusuna abidə qoydular. Amma mitinqdə sinəsini cıranlar Gürcüstanın Bakıdakı səfirliyinin qarşısına toplaşmadı, aksiya keçirmədi, bir kəlmə söyləmədilər. Biz bilmirik, bəlkə abidəni qoyanlarla eyni mənbədən maliyyələşirlər? Yaxşı olar, bu suala cavab versinlər”.

**Siyasi şərhçi Hikmət Hacızadə** müxalif qüvvələrin iqtidara təzyiq gücünün azalmasının səbəbləri barədə bildirdi ki, mübarizə üçün münbit şərait olmalıdır: “Azərbaycanda olmayan da elə bu mühitdir. Müxalifət heçə endirilib, hökumət müxalifətlə teatr göstərə bilir”.

Politoloqun fikrincə, hökumətə nə boyda teatr lazımdırsa, müxalifətə o qədər yer verir: “İstəsə qapı-pəncərələri bağlaya bilər, interneti, televiziyanı bloklayar. İstəyəndə mitinqə icazə verir, istəmirsə vermir. Əhalidə tərpəniş olmalıdır. Mitinqlərdə kütləvilik yoxdur. İcazəsiz aksiyalara 200-300 adam gəlir.

İlk növbədə gənclər üçün meydan olmalıdır ki, o da yoxdur. Yaşlı müxalifət gözləyir ki, gənclər yeni ideyalarla gəlsin, formalaşsın. Amma cavanları da sıxırlar. Əhali etirazlara qarışmırsa, bu şəraitdə müxalifətdə olanları qəhrəman sayıram. Belə vəziyyətdə nə isə etməyə çalışırlar. Nəzərə almaq lazımdır ki, müxalifətdə qalanları da incidirlər, yaxınlarını işə götürmürlər. Amma belə davam edə bilməz, böhran dərinləşəcək. Ona görə islahatlar lazımdır".

**AĞ Partiyanın başqanı Tural Abbaslı** isə müxalifətin hakimiyyətə təzyiq edə bilməməsində günahı daha çox birincilərdə görür:

“Yəni Amerika kəşf etməyə ehtiyac yoxdur. Müxalifətin gücü narazı elektoratdır. Əgər onlar hakimiyyətin cizdiyi dairədə müxalifətçilik edə bilirsə, deməli, narazı qüvvələri yanına ala bilməyiblər. Çünki hakimiyyət qədər yaşı olan müxalifət xalq üçün etimadsızlaşıb. Artıq bəzilərini ləqəblərlə xatırlayırlar. Müxalifət öz daxilində yenilənməlidir”.

T.Abbaslının sözlərinə görə, narazı elektoratın tələbatına uyğun təşkilatlar, strukturlar təqdim olunmalıdır: “Mitinq keçirirsən, telefon nömrələrinə sonra zənglər olunur, təqiblər başlayır. Müxalifət narazıların təhlükəsizliyini də düşünməlidir. Bunun üçün yeni platformalar tapmalıdır, sosial şəbəkələr, müasir mediadan istifadə olunmalıdır. Taktika dəyişməsə, hakimiyyətə təsir imkanları çətin olacaq. Müxalifət iqtidar qarşısında zəifdirsə, o demək deyil hakimiyyət güclüdür. Sadəcə, bu düşərgə öz metodlarını yeniləsə, iqtidarın hansı gücə malik olduğu üzə çıxar”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Biznesmen-siyasətçilərin hakimiyyətləri batır

## Razi Nurullayev: “Oliqarxların hakimiyyətə gəlməsi tendensiyası dayanır”

**Meksika ilə sərhəddə səddin tikintisinə dair Konqreslə yaranan fikir ayrılığı səbəbindən federal hökumətin işinin dayandırılmasına gətirib çıxaran büdcə böhranından sonra ABŞ prezidenti Donald Trampın dəstək reytinqi 40 faizə qədər azalıb. ABŞ-ın tanınmış sorğu mərkəzlərinin keçirdiyi reytinq sorğusu bu nəticəyə gəlib. Sorğuda iştirak edən ABŞ vətəndaşlarının 57 faizi Amerika liderinin büdcə böhranından çıxmaq üçün göstərdiyi fəaliyyətlə razı deyil. Bununla yanaşı, rəyi soruşulan Respublikaçılar Partiyasının tərəfdarlarının 86 faizi Ağ Evin rəhbərini dəstəkləyir. Demokratlar Partiyasının eyni sayda tərəfdarı isə büdcə böhranına görə Trampı günahlandırır. Heç bir partiyanı dəstəkləməyən respondentlərin 60 faizi də ABŞ liderinin siyasətini bəyənmir.**



Razi Nurullayev

Sorğu yanvarın 18-dən 22-dək 1996 amerikalı arasında aparılıb. ABŞ-da bu cür büdcə böhranları əvvəllər də baş verib. Lakin hazırkı böhran müddətinin uzunluğuna görə rekorda imza atıb. Respublikaçılarla demokratların bir-birinə güzəştə gedəcəyi perspektivi isə hələlik inandırıcı görünmür. Artıq doqquz nazirlik, həmçinin bəzi iri dövlət müəssisələri maliyyəsiz qalıb.

Donald Trampın Amerika vətəndaşları arasında reytinqinin sürətlə aşağı düşdüyünü artıq ABŞ mediası hər gün tirajlayır.

Ümumiyyətlə, təkcə D.Trampın timsalında deyil, son illərdə dünyada böyük kapitala sahib iş adamlarının siyasi hakimiyyətə gəlişi prosesi müşahidə olundu. Ukraynada milyarder iş adamı Pyotr Poroşenko, Gürcüstanda milyarder Bdizina İvanişvili və digər bir neçə ölkədə, həmçinin ABŞ-da Donalda Tramp illərin peşəkar siyasətçilərinə seçkilərdə qalib gəlməklə yeni bir trend yaratmışdılar. Xalqların siyasətçilərə etimad göstərməmdiyi, biznesmenləri seçməyə başlamasının müxtəlif səbəbləri qeyd edilirdi.

D.Trampın reytinqinin qısa müddətdə aşağı düşməsi, İvanişvilinin bir müddətdən sonra baş nazir vəzifəsindən getməsi, Poroşenkonun nüfuzunun əvvəlki səviyyədə qalmaması artıq əks prosesin getdiyini göstərir. Ekspertlərin fikrincə, artıq qeyd etmək mümkündür, son illərdə iş adamlarının siyasətçiləri sıxışdırıb siyasi hakimiyyətə sahiblənməsi tendensiyası dayanır və siyasətçilər yenidən önə çıxır. Səbəb isə odur ki, xalqlar siyasətçiləri deyil, iş adamlarını seçməklə yanıldıqlarının fərqinə varmağa başlayıblar.

Maqnatların siyasi hakimiyyətə sahiblənməsi tendensiyasının dayandığını və bundan sonra sırf peşəkar siyasətçilərin yolunun açılacağını söyləmək mümkünmü?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bu barədə “Yeni Müsavat”a şərhində bildirdi ki, biznesmenlərin, oliqarxların hakimiyyətə gəlməsinə hər zaman fəlakət kimi yanaşıb. Çünki onların əksəriyyəti “Madaqaskar” cizgi filmində ac qalan şir Aleks kimi dostu zürafəni qızarmış toyuq tabakası kimi görürlər: “İş adamları üçün kapital qazanmaq bir vərdişdir. Siyasətdə isə pul vacibdir, amma hər şey demək deyil. Vətənini və xalqını inkişaf etdirmək istəyən ağıllı biznesmen özü siyasi hakimiyyətə can atmaz, normal siyasi qüvvəyə, siyasətçiyə kənardan dəstək verər. Dəstək verər ki, həmin siyasətçi iqtidara gəlsin və dövləti irəli aparsın. Təcrübə göstərir ki, oliqarxlar hakimiyyət sahibi olanda biznesdə əldə edə bildikləri, bacardıqları uğurları təkrarlaya bilmirlər. Nəzərə almaq lazımdır ki, dövlət idarə etməklə şirkət idarə etmək eyni deyil. Siyasətçilər dövlət idarə etməsində daha peşəkar və maraqlı olurlar. Təbii ki, böyük sayda istisnalar da var, mən ümumiləşmiş obraz barədə danışdım. Mən cənab Donald Trampın ikinci dəfə seçiləcəyinə çox da inanmıram, seçilsə belə, görünən odur ki, dünya liderləri onun dünya düzəni ilə bağlı atdığı addımları çox da dəstəkləmirlər. Ukrayna prezidentinin reytinqi çox aşağıdır. Gürcüstanın keçmiş baş naziri və milyarder İvanişviliyə münasibət çox dəyişib, amma o, ağıllı hərəkət edərək siyasətdən vaxtında getdi və gizli əl kimi idarə etməyə başladı. Doğrudan da eyni adam həm siyasətçi, həm də biznesmen olanda ölkə xaosa çevrilir”.

R.Nurullayev onu da dedi ki, biznesmenlərin siyasətə nüfuz etməsi prosesi Azərbaycanda da bir müddət çox güclü inkişaf edib və 2015-ci ilə kimi bu proses gedib. 2015-ci ildən sonra proses bir az səngidi və bu ildən isə, demək olar ki, dayanmağa doğru gedir: “Qeyd olunan dövrə qədər nazirlərin çoxu biznesmenlər idi, deputatların yarısı oliqarx. Amma vətəni, torpağı və dövlət atributlarını qorumaq məqamı gələndə onlar yox idi və təbii ki, olmayacaqlar da. Onlar üçün vacib biznes və puldur. Onun üçün də siyasətlə siyasətçilər məşğul olsun, biznesmenlər və oliqarxlar isə sevdikləri peşə ilə-pul qazanmaqla məşğul olsunlar. Onsuz da dünyada biznesmenlərin, oliqarxların hakimiyyətə gəlməsi tendensiyası dayanır”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

# "Hakimiyyət daha çox maraqlı olmalıdır ki, aqressiya azalsın"

**"Təəssüf ki, Azərbaycanda aqressiyanın artması müşahidə olunur". Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa bu fikirləri ölkədə düşərgələrarası münasibətlərdən "Yeni Müsavat"a bəhs edərkən söylədi.**

Millət vəkilinin fikrincə, ilk növbədə, təbii ki, cəmiyyətin müəyyən problemlərinin vaxtında həll olunmaması ilə bağlı məsələlərə diqqət yetirmək lazımdır. Onun sözlərinə görə, hakimiyyətin bir sıra addımları vaxtında atması qarşı tərəfin arqumentlər sarıdan "tərksilah" olunmasına gətirib çıxara, nəticədə aqressiyanın azalmasına səbəb ola bilər: "Ölkə prezidenti şəhid ailələri ilə bağlı problemi həll etdi. Halbuki müvafiq qurumlar vaxtında bunu həll etsəydi, heç bu qədər ajiotaj da yaranmayacaqdı. Yaxud təqaüdçülər, iş yerləri ilə bağlı məsələlər var... Yüzlərlə tikinti obyektinin işinin dayanması problemləri var. Həmçinin istehsalla bağlı problemlər mövcuddur. Artıq alqı-satqı, bazar dayanıb, ticarət yoxdur. Müəyyən maneələr, inhisarçı fəaliyyətlər imkan vermir ki, insanlar çörəkpulu qazansınlar. Çörəkpulu qazanmayan adam mütləq küçəyə çıxmalıdır. Yeni ümid edir ki, bəlkə nə isə dəyişdi və mən çörək qazana bildim. Ona görə də əslində hakimiyyət daha çox maraqlı olmalıdır ki, aqressiya azalsın".



**Fazil Mustafa:** "Aqressiyanın artmasında müəyyən barışmaz müxalifət ünsürlərinin də rolu böyükdür"

F.Mustafa burada müxalifətin də günahkar olduğunu vurğuladı: "Aqressiyanın artmasında müəyyən barışmaz müxalifət ünsürlərinin də rolu böyükdür. Bu isə onlara daha çox ziyandır. Çünki bu üslubda mübarizə sabah onların ətrafında toplanan insanların daha cilovlanmamış, cilalanmamış və istənilən vaxt ancaq dağıntılarla, pozuculuq fəaliyyətlə məşğul olan bir davranışa vərdiş elətdirir. Yəni əslində müxalifətin elektoratı daha mədəni, daha səviyyəli davranmaqla iqtidarı islahatlar aparmağa məcbur etməlidir. Bütün hallarda bunu etmək, aqressiyanın tonunun müxalifət tərəfindən aşağı salınması, məncə, daha faydalı yoldur. Çünki bu oyun qaydaları iqtidardan çox, müxalifətə lazımdır. İqtidarın əlində dəyənək var, sənin əlində heç nə yoxdur. Aqressiv mühit yaradılanda uzaqbaşı daha çox dəyənək yeyiləcək. Ona görə də müxalifət dəyənəyi işə salmağa bəhanə verəcək addımlardan çəkinməlidir. O, əlində olan sosial şəbəkənin, mətbuatın, medianın, daha tolerant və müəyyən dərəcədə mədəni üslubundan istifadə edərək səviyyəli tənqidlə cəmiyyətdən dəstək qazanmağı bacarmalıdır. Bu, olarsa, gələcəkdə özünün də kadr bazasının daha sağlam insanlardan ibarət olmasına imkan yarada bilər və bu, onun özünün də xeyrinədir".

❑ **ELŞAD,**
**"Yeni Müsavat"**

# ADP sədri AXH-dəki partiyaları başına toplayır





**Sərdar Cəlaloğlu:** "Yalnız seçki taktikasını müzakirə edəcəyik"
**İsgəndər Həmidov:** "İnanmıram ki, Sərdar bəy bizə alternativ birlik yaratmaq üzərində düşünsün"

**ADP sədri Sərdar Cəlaloğlu fevralın 9-da saat 12:00-da qeydiyyatdan keçmiş 20-yə yaxın partiyanı qərargahına toplayacaq. Tədbirin əsas mövzusu Azərbaycanda seçki taktikası olacaq.**

ADP sədrinin qəfil toplantı keçirmək qərarı verməsi müzakirələrə yol açıb. Maraqlıdır ki, S.Cəlaloğlunun tədbirə dəvət etdiyi partiya rəhbərlərinin 90 faizdən çoxu sabiq daxili işlər naziri, AMDP sədri İsgəndər Həmidovun təşəbbüsü ilə yaradılan Azərbaycan Xalq Hərəkatının (AXH) üzvləridir. Belə iddialar var ki, məhz bu hərəkata qarşı belə bir toplantı çağırılıb. AXH-nı parçalamaq üçün, S.Cəlaloğlu başda olmaqla, bəzi siyasətçilərin hərəkətə keçdikləri iddia olunur. Tezliklə ADP sədrinin təşəbbüsü ilə AXH formatında bir birliyin elan olunacağı deyilir. Hətta belə məlumatlar var ki, AXH-dən küsüb rəhbərlikdə təmsil olunmaq istəməyən partiya sədrlərinin təşəbbüsü ilə belə bir addım atılır.

S.Cəlaloğlu "Yeni Müsavat"açıqlamasında yayılan xəbərləri təkzib etdi: "Biz dəyirmi masa keçirmək istəyirik. Rəsmi qeydiyyatdan keçmiş partiya sədrləri dəvət olunub. Demək olar hamıya dəvət göndərilib. Hər kəs də razılıq verib. Bu toplantının Azərbaycan Xalq Hərəkatına qarşı olması yönündə yayılan məlumatlar yanlışdır. Burada yalnız seçki məsələsini müzakirə edəcəyik. Yeni bir hərəkatın yaranmasından, Xalq Hərəkatına alternativ birlik yaratmaqdan söhbət belə gedə bilməz. Belə məlumatları ancaq bədxahlar yaya bilər. Bu da sırf tədbirimizi gözdən salmağa hesablanıb. Biz Xalq Hərəkatında kimin olub-olmamasına görə deyil, qeydiyyatdan keçmiş partiyaların rəhbərləri olmaq baxımından dəvət etmişik. Hərəkatın təşəbbüskarı İsgəndər Həmidov da tədbirimizə dəvət olunub. Buna görə bunlar boş və əsassız iddialardır".

İ.Həmidov ADP sədrinin belə bir planının olduğunu təsəvvür etmir: "Mənə də dəvət üçün zəng edilib. Hərəkatın idarə heyətinin toplantısını keçirib, iştirak edib-etməməklə bağlı qərar verəcəyik. İnanmıram ki, Sərdar bəy bizə alternativ birlik yaratmaq üzərində düşünsün. Tədbirdə, sadəcə, seçki taktikası müzakirə olunacaq. Allah köməkləri olsun. Nə yaratsalar belə, biz alqışlayacağıq. Təki iqtidara qarşı mübarizə aparsınlar. Malı mala qatmaq lazım deyil. Sərdar Cəlaloğlu Xalq Hərəkatının rəhbərliyində yoxdur. Onun kimi savadlı, peşəkar bir siyasətçini biz də Xalq Hərəkatının rəhbərliyində çox görmək istərdik. İsgəndər Həmidovu dəvət ediblər və İsgəndər Həmidov artıq əvvəlki deyil. O Azərbaycan Xalq Hərəkatının idarə heyətinin üzvüdür. Bizim əsasnamə var. Kim bizi nəyəsə dəvət edirsə, öncəliklə müzakirə edirik. Kimsə iştiraka razı olmasa belə, çalışacağıq ki, həll edək. Heç kəsin hərəkatın qərarı olmadan danışmağa ixtiyarı yoxdur. Tədbirə dəvət tək mənə gəlib. Mən də demişəm ki, hərəkatda müzakirə edib baxarıq. Dönəm sədri kimi tədbirə dəvət olunmuşam. Bizim hərəkatda qeydiyyatdan keçən partiya çoxdur. Bildiyim qədəri ilə onların heç birinə dəvət gəlməyib. Dəvət gəlsə belə, yenə də müzakirələr olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## "Heç bir seçkidən imtina etmək olmaz"

**Mirmahmud Mirəlioğlu:** "Etiraf etmək lazımdır ki, son parlament seçkilərində bizim mövqeyimiz özünü doğrultmadı"

**"Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə neçə vaxtdır danışılır. Amma onun real olduğunu hətta bu barədə danışanların özləri də bilmirlər. Belə ehtimal, fikir, yanaşma var, deyirlər, ondan o tərəfə nə isə deyilmir".**

Azərbaycan Xalq Hərəkatının (AXH) təsisçilərindən biri, KXCP sədri Mirmahmud Mirəlioğlu bu fikirləri "Yeni Müsavat"a açıqlamasında deyib. Partiya sədri bildirib ki, istənilən seçki bitən gündən etibarən növbəti seçkiyə hazırlıq başlayır: "Bizim Hərəkatda bununla bağlı məndə məlumat yoxdur. Epizodik nə isə deyilə bilər. Yaxud ola bilər kimsə desin ki, hərəkatda iştirak etməklə kimsə hansısa seçkidə iştirak etmək üçün istifadə etmək istəyir. Şəxsi fikir ola bilər. Amma hələlik konkret qərar yoxdur".

Şəxsən özünün növbəti parlament seçkilərində iştirakı məsələsinə gəldikdə, M.Mirəlioğlu bunları deyib: "Mənim seçki ilə bağlı qərarım, təbii ki, KXCP-də müzakirə olunandan sonra verilə bilər. Etiraf etmək lazımdır ki, son parlament seçkilərində bizim mövqeyimiz özünü doğrultmadı. Yəni o zaman biz müttəfiqlərimizlə seçkidə iştirak etmək barədə qərar qəbul etdik. Lakin bizi seçkiyə buraxmadılar. Seçkidə iştirak etməyə razılıq almış, qeydiyyatdan keçmiş namizədlərimiz belə, etiraz etdilər, amma biz öncəki qərarımızın qüvvədə qalmasının tərəfdarı olduq. Bununsa yanlış olduğu qənaətindəyəm. İndi hansı qərar qəbul olunacaqsa, yəni növbədənkənar, yaxud növbəti seçki olacaqsa, zamana və şərtlərə uyğun olaraq qərar verilməlidir. Mən bu sahədə - təvazökarlıqdan uzaq da olsa - bir təcrübəli və mandatdan imtina etmiş şəxs olaraq hesab edirəm ki, heç bir seçkidən imtina etmək olmaz! Seçkilərdə iştirak etmək lazımdır, bu, vətəndaşların da təbii haqqıdır, buna qarşı çıxmaq olmaz! Bu, mənim subyektiv fikrimdir".

❑ **ELŞAD,**
**"Yeni Müsavat"**



# Xroniki çabalamanın növbəti mərhələsi - "Yeni Müsavat"ın 30 yaşına salamat çıxmaq əzmi

Xalid KAZIMLI

**Süd bidonuna düşmüş iki qurbağa haqqında pritçanı əvvəlki yazılarımda da ən azı iki dəfə yazmışam. Hər dəfə müvafiq situasiya yarananda ilk yada düşən ən ibrətamiz rəvayət budur - demək istədiyin fikri yüz faiz açır.**

20-ci əsrin ən dahi siyasət adamı Uinston Çörçill də bu pritçanı danışmağı sevərmiş. Bir dəfə o, bunu II Dünya müharibəsi zamanı ABŞ-ın Böyük Britaniyadakı səfiri Cozef Patrik Kennediyə (ABŞ-ın 34-cü prezidenti Con Kennedinin atası) danışıb.

Çörçill Kennediyə deyib: "Bir gecə süd bidonuna iki qurbağa düşür, biri vəziyyətin çıxılmazlığını görür və çabalamağı dayandırır, bidonun dibinə gedir, boğulur. O birisi səhərə qədər, yorulub əldən düşənədək çabalayır, çabalayır, səhər çağı artıq gücü qalmır, çabalaya bilmir, amma görür ki, artıq batmır, südün üzərində qalıb. Bəs nəyə görə? Ona görə ki, qurbağa bütün gecəni çabaladığından artıq süddə yağ əmələ gəlib və o, indi həmin yağın üstündədir. Bax, Cozef, mən həmin o ikinci qurbağayam, təslim olmaq söhbəti yoxdur, sona qədər çabalayacağam".

"Yeni Müsavat" qəzeti də yaranışından bəri o prinsipə sadiqdir - sona qədər çabalamaq, təslim olmamaq, zamanın gərdişinə, radikal iradələrə boyun əyməmək, müqavimət göstərmək.

Elə olmasaydı, son 30 ildə azı 30 dəfə hansısa bidona düşən bu qəzet bir dəfə dibə getmiş olardı.

O gün dostlar sosial şəbəkədə bir zamanlar çalışdıqları, amma hazırda bağlanmış, sıradan çıxmış qəzetlərin adlarını sadalamışdılar. Nələr var, nələr... Nə çox qəzet fəaliyyətini dayandırıbmış.

Özü də onların bəziləri bir zamanlar tirajlarına görə ya "Yeni Müsavat"dan öndə, ya da bir-iki pillə geridə olublar, amma nəinki birinciliyi, ikinciliyi, üçüncülüyü, hətta mövcudluqlarını belə saxlaya bilməyiblər.

Görünür, ya lazımınca çabalaya bilməyiblər, ya da effektiv çabalamaq üçün zəruri əzaları - qol-qanadları öncədən qırılmış olub. Bir çox hallarda isə total iflasa o qəzetlərə sponsorluq edən, enerji verən şəxslərin süqutu səbəb olub.

Hər necə olsa da, durum budur: son illərdə onlarla populyar qəzet bu və ya digər səbəbdən fəaliyyətini dayandırmalı olub.

Dəfələrlə "Yeni Müsavat" da bənzər durumla üz-üzə qalıb, amma qəzetin rəhbərliyi və kollektivi media sektorundan başqa heç bir sahədə bu cür uğurlu fəaliyyət göstərə bilməyəcəyi qənaətinə gələrək mövcudluq mübarizəsini davam etdirib.

Hazırda bənzər aqibət yenidən qapının ağzını kəsdirib. Dövlət uzun illər boyunca mediaya verdiyi maliyyə vəsaitini eyni xətt və şərt üzrə davam etdirmək fikrində deyil. Görünür, bu sayaq maliyyə dəstəyi effekt vermir.

Əslində dövlətin belə bir öhdəliyi də yoxdur, çünki media qurumları özəl sektora aiddir.

Bu isə o deməkdir ki, mövcudluqlarını qorumaq istəyən media qurumları çabalamağa məhkumdurlar. Hətta maliyyə dəstəyi ayrılan qəzetlərin sırasında olmaq da bu il üçün arxayınlıq, gələn il üçün zəmanət verə bilməz.

Ona görə də mövcud olduğu 30 ilin 25 ilə yaxınını dövlətdən yardım almadan fəaliyyət göstərən "Yeni Müsavat" yenidən oxucularının dəstəyi ilə çabalamaq qərarına gəlib. Qəzet rəhbərliyinin başlatdığı abunə kampaniyasının bir məqsədi də budur.

Yox, heç də oxucularımızın sayı azalmayıb, hətta 15-20 il öncəylə müqayisədə oxucularımızın sayı ən azı 50 min nəfər artıb. Sadəcə, onların çoxu pul verib qəzet almırlar, pul verib internetə qoşulur, qəzetimizin internet versiyasını oxuyurlar. O oxucuların sayı isə gündəlik olaraq 50-120 min arasında dəyişir (ölkədə mühüm, ajiotaj doğuran hadisə olanda oxucularımızın sayı o rəqəmi də aşır).

Ancaq bizdə bəzi ölkələrdə olduğu kimi deyil. Bizdə saytların ödənişli olması praktikası yoxdur. Bəzi ölkələrdə bəzi saytlar öz xəbərlərini pullu ediblər, onları oxumaq istəyən plastik kart vasitəsilə saytın hesabına pul ödəyir. Bu təcrübə bizə nə vaxt gələcək, gəlsə, effektiv olacaqmı, bəlli deyil.

Bilinən odur ki, "Yeni Müsavat"ın öz fəaliyyətinə davam etməsi üçün ya pul verib qəzeti köşklərdən alan oxucular olmalıdır, ya da oxucular qəzetə aylıq, illik abunə yazılmalıdırlar.

Təbii ki, bu, könüllülüyə, sevgiyə, rəğbətə dayanan kampaniyadır. Zatən, hansısa qəzet, məşhur ifadə ilə deyildiyi kimi, 100-lük əskinas deyil ki, hər kəsin xoşuna gəlsin.





Web Screenshot

# Həbsdə əmlakını məhkəmədən gizlədən məmurun başı dərddə

## "Aztelekom" İstehsalat Birliyinin sabiq baş direktoru Məhəmməd Məmmədov bacısı oğlunu niyə tutdurubmuş?

**"Aztelekom" İstehsalat Birliyinin sabiq baş direktoru Məhəmməd Məmmədov yenidən medianın gündəminə gəlib. Unikal.org xəbər verir ki, M.Məmmədov bacısı oğlu, "Aztelekom" köməkçisi işləmiş qohumunu həbs etdirməsinə səbəb Mingəçevir və Bakıda yerləşən mülklərini ona qaytarmaması olub.**

Belə ki, Məhəmməd Məmmədov həbsdən azad olunduqdan sonra bacısı oğlunun adında olan Mingəçevirdəki şadlıq sarayını və Bakıda hündürmərtəbəli binada yerləşən iki mənzilini geri tələb edib. Dayısının tələbinə məhəl qoymayan bacıoğlu mülkləri geri qaytarmayıb. M.Məmmədov məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına şikayət edib. Onun şikayəti əsasında bacısı oğlu saxlanılıb. O, 3 gün həbsdə qaldıqdan sonra dayısına mülkləri qaytarıb.

Qeyd edək ki, bu cür "praktikadan" məmurlar çox istifadə edir, əmlaklarının bəzilərini yaxın qohumlarının adına sənədləşdirirlər. Bəzi hallarda da bu cür hallarla rastlaşılır.

Yada salaq ki, "Aztelekom"un sabiq baş direktoru vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı maddələri ilə 2015-ci ilin noyabr ayında həbs edilib. M.Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 və 308.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və ona bu maddələrlə ittiham elan olunub. Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə onun barəsində ilkin olaraq 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. M.Məmmədovun barəsindəki həbs-qətimkan tədbirinin müddəti sonradan bir neçə dəfə artırılıb.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mənimsəmədə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən 11 keçmiş əməkdaşı ümumilikdə 40 milyon manat pulu mənimsəməkdə ittiham olunurdular. M.Məmmədov isə 4 milyon manat mənimsəməkdə təqsirli bilinirdi. 2017-ci ilin yayında Bakı Ağır Cinayətlər Məhkəməsində "Rabitə işi" üzrə hökm oxunub. "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədova şərti cəza verilib və o, məhkəmə zalından azadlığa buraxılıb. M.Məmmmədov dövlətə vurduğu 4,5 milyon manatlıq ziyanı ödəyib.

Məhkəmədə ittiham aktında Məhəmməd Məmmədovun mülklərinin sayı açıqlanmışdı.

"Yeni Müsavat" xəbər verir ki, iş materiallarında Məhəmməd Məmmədovun və ailə üzvlərinin mülklərin siyahısı elan olunmuşdu. Onları bir daha yada salaq: Bakı şəhəri, Xəzər rayonu, Dübəndi bağ sahəsində 2 bağ evi, Bakı şəhəri, Xətai rayonu, Nəsrəddin Tusi küçəsində yerləşən 19 saylı yeni tikilidə 14 saylı mənzili, Abşeron rayonu, Fatmayi kəndində 145 və 145a saylı bağ evləri, Nəsimi rayonu Mərdanov Qardaşları küçəsində yerləşən "Yurd" MTK-da 34 saylı mənzili və Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində yerləşən ticarət obyektləri var.

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən istintaqa daxil olmuş 06.11.2015-ci il tarixli 150220205080 №-li məktubda isə göstərilib ki, Məmmədov Məhəmməd Əsgər oğlunun adına Bakı şəhəri, Xətai rayonu, Nəsrəddin Tusi küçəsi 19 saylı evin 14-cü mənzili, Bakı şəhəri, Xəzər rayonu, Dübəndi bağ sahəsi, "BTRİB" b/y-nin 5-6-cı Şimal küçəsində bağ evi, Bakı şəhəri, Binəqədi rayonu, Goradil kəndi, 226 saylı bağ sahəsi var. Bununla yanaşı, M.Məmmədovun oğlu Məmmədzadə Araz Məhəmməd oğlunun adına Bakı şəhəri, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, Zahid Qəmbərov küçəsi, ev 22/24-də yerləşən qeyri-yaşayış sahəsi, qızı Məmmədova Şükufə Sabir qızının adına Bakı şəhəri, Binəqədi rayonu, Şövkət Məmmədova küçəsi, 15 saylı evin 51 saylı mənzili var.

M.Məmmədovun digər qızı Məmmədova Şeyda Məhəmməd qızının adına Bakı şəhəri, Nəsimi rayonu, Vladislav Plotnikov küçəsi, 21 a saylı evin 31 saylı mənzili, Bakı şəhəri, Səbail rayonu, F.Əmirov küçəsi, 2 saylı qeyri-yaşayış sahəsi aşkarlanıb.

Sabiq baş direktorun digər oğlu Məmmədzadə Babək Məhəmməd oğlunun adına isə Abşeron rayonu, Fatmayı kəndi, Qara Qarayev küçəsi, 145, 145a saylı fərdi yaşayış evi, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov Qardaşları küçəsi, 117b saylı evin 34 saylı mənzili, Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, 91 saylı evin 23 saylı mənzili, Xaçmaz rayonu, Aşağıoba kəndində torpaq sahəsi olması müəyyən edilib.

Onu da qeyd edək ki, Məhəmməd Məmmədov uzun illər Yeni Azərbaycan Partiyası Mərkəzi Nəzarət - Təftiş Komissiyasının sədri olub. Onun həbsindən sonra YAP strukturlarında tutduğu vəzifədən azad olunub.

❑ ORXAN,
"Yeni Müsavat"





# Ayın 10-dan energetik içkilər və siqaret bahalaşacaq

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanuna əsasən, alkoqollu energetik içkilər, alkoqolsuz energetik içkilər və elektron siqaret üçün maye aksizli malların siyahısına daxil edilib, siqar və siqarilllalar fərqli aksiz dərəcəsi tətbiq olunmaqla yeni redaksiyada verilib və siqaretlərin isə aksiz dərəcəsi artırılıb.**

XəzərXəbər-in məlumatına görə, Nazirlər Kabinetinin 2019-cu il 10 yanvar tarixli 4 nömrəli qərarına əsasən, həmin malların Azərbaycan Respublikasının Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə sinifləşdirilməsi məqsədilə alkoqollu energetik içkilər, alkoqolsuz energetik içkilər , elektron siqaret üçün maye, siqaret, siqar ve siqarillaların müvafiq mal mövqelərinin kodları müəyyənləşdirilib.

Alkoqollu energetik içkilər, alkoqolsuz energetik içkilər və elektron siqaret üçün mayeyə, siqaret, siqar ve siqarillalar əvvəllər sadəcə idxal rüsumuna cəlb olunurdusa, Nazirlər Kabinetinin 2019-cu il 10 yanvar tarixli 5 nömrəli qərarı ilə cari ilin fevral ayının 10-dan etibarən bu mallara həm də aksiz vergisinin tətbiqi nəzərdə tutulub.

"Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri" haqqında Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilib.

Qeyd edək ki, aksiz vergisinin tətbiq olunması ilə əlaqədar fevralın 10-dan etibarən energetik içkilər və siqaretin qiymətində bahalaşma olacaq.

**Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyaya ikinci səfərindən də "əli ətəyindən uzun" qayıtdı. Almanlar yenə ona pul əvəzinə vəd, bir də bir mühüm ev tapşırığı və iki ciddi mesaj verdilər (Bu haqda aşağıda). Hərgah, inqilabçı baş nazir dəridən-qabıqdan çıxıb almanları, Qərbi inandırmağa çalışdı ki, Ermənistan Rusiya ilə strateji müttəfiq ola-ola da Avropanın, Qərbin dostuna çevrilə bilər.**




# Qarabağ - Qafqazın "Qordiyev düyünü": Qərb tələsir, Rusiya isə...

## Paşinyan Qərbi "İki stul"da oturmadığına inandıra bilmədi; Putinin emissarının İrəvan səfərinin hədəfi dəqiqləşdi - Kreml nədən narahat imiş?

## "Alman dalğası": "Erməni baş nazir qısa zamanda uğura nail olmasa..."

*****

"Biz iki stulda oturmağa çalışmırıq, belə bir məqsədimiz yoxdur. Biz bir tərəfdaşla əlaqələri başqa tərəfdaşın ziyanına inkişaf etdirməyə də hazırlaşmırıq". "Yeni Müsavat" erməni qaynağına istinadən xəbər verir ki, bu sözləri Paşinyan Berlində olarkən "Deutsche Welle" ("Alman dalğası") radiosuna eksklüziv müsahibəsində deyib.

Radio səfər zamanı Almaniya kansleri Angela Merkelin Paşinyanla görüşdə onа dediyi və əslində daha çox mesaj xarakteri daşıyan sözlərə isə məxsusi yer ayırıb. Sitat: "Merkel ötən ilin dekabrında Ermənistanda keçirilən parlament seçkilərini "demokratik" adlandırıb və eyni zamanda vurğulayıb ki, seçkilərin nəticələri ölkə əhalisinin yeni baş nazirə böyük ümidlər bəslədiyini göstərib. Merkel vurğulayıb ki, ikitərəfli əlaqələr Ermənistan əhalisinin həyat şəraitinin yaxşılaşmasına xidmət eləməlidir. Odur ki, onun fikrincə, baş nazir uğurlara nail olmaq üçün tələsməlidir. Kansler əlavə edib ki, Berlin İrəvandakı yeni hakimiyyətə təkcə iqtisadi baxımdan deyil, korrupsiya ilə mübarizədə də kömək eləməyə hazırdır".

"Deutsche Welle" danışıqlarda ikinci mühüm mövzu kimi Dağlıq Qarabağ probleminin diqqət mərkəzində olduğunu bildirib: "Jurnalistlərin suallarını cavablandıran Merkel son vaxtlar Azərbaycan və Ermənistanın rəhbərləri arasında baş tutan görüşləri pozitiv hesab etdiyin deyib və Paşinyanın bu yöndə addımlarını cəsarətli saydığını söyləyib. Merkel bildirib ki, yalnız iki tərəfdən birinin xoş məramı ilə Dağlıq Qarabağ probleminin həlli mümkün olmayacaq və proses danışıqlardan o yana keçməyəcək".

Berlindəki birgə mətbuat konfransında Nikol Paşinyan isə yenə Dağlıq Qarabağdakı separatçı rejimi danışıqların müstəqil tərəfi kimi təqdim eləməyə çalışıb. Lakin alman tərəfi bu yanaşmanı məqbul saymayıb və Merkelin də sözlərindən göründüyü kimi, rəsmi Berlin əsas münaqişə tərəfləri qismində yalnız Azərbaycan və Ermənistanı gördüyünü bəyan edib.

Belə çıxır, Nikol "köhnə bazara təzə nırx" qoymağa çalışmaqla, sadəcə, danışıqları mənasız edə bilər. Belə yanaşma isə xoş məram göstəricisi sayıla bilməz. Demək, Almaniya kansleri əslində məhz erməni tərəfini, Paşinyanı konstruktiv olmağa çağırıb, Bakını yox. Bu - Berlinin birinci ciddi mesajı.

Başqa yandan, Dağlıq Qarabağ məsələsində dönüş olmadan, bölgədə müharibə riski birdəfəlik aradan qalxmadan nə Almaniyanın, nə də bütövlükdə Qərbin Ermənistana böyük sərmayələri gəlməyəcək. Merkel "Paşinyan tələsməlidir" deyəndə şəksiz ki, ən əvvəl buna işarə edib. Çünki Berlində də yaxşı anlayırlar ki, blokada rejimində və Rusiyadan vassal asılılığında olan, əsas qonşuları Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı qalan, dünya okeanına çıxışdan məhrum Ermənistanda dərin demokratik və hüquqi islahatlar aparmaq mümkün olmayacaq. Demək, ölkə Qərb sərmayələri üçün cəlbedici ola bilməyəcək. Ən əsası, iflas olan islahatlar Paşinyana qarşı əks-inqilab ovqatını gücləndirəcək. Almaniyadan verilən ikinci mühüm mesaj bundan ibarətdir. Kəsəsi, Paşinyanın nəzərinə çatdırılıb ki, Qafqazın "Qordiyev düyünü" məhz Qarabağ məsələsidir və o, açılmayınca və ya kəsilməyincə, Ermənistan tərəqqiyə ümid etməməlidir.

Söz düşmüşkən, iki gün sonra Paşinyanın "məxməri inqilab" nəticəsində hakimiyyətə gəlişinin 8 ayı tamam olacaq. Bu müddətdə nə erməni əhalisinin güzəranında yaxşıya doğru dönüş yaranıb, nə düz-əməlli iş yerləri açılıb, nə də Ermənistandan kütləvi köç səngiyib. Üstəlik, Paşinyan 9 aydır Putinə sədaqət andları içməkdə davam edir, Ermənistanın Rusiya orbitindən çıxmayacağını bəyan edir. Və nə qədər paradoksal olsa da, bu bəyanatlar fonunda o, Qərbin böyük maliyyə dəstəyinə ümid edir. "İki stul" siyasəti də budur - xalqa verdiyi vədləri unudan Paşinyan özünü nə qədər görməzliyə vurub blef eləsə də...

*****

Rusiyaya belə vəziyyət əslində əl verir. Moskva eyni zamanda Qərbin, ABŞ-ın Paşinyanı tələsdirəcəyindən narahatdır. Çünki erməni baş nazirin başqa çıxış yolu artıq görünmür.

Ötən saylarımızda yazdığımız kimi, Con Boltonun İrəvan səfərindən sonra Paşinyan hökumətini açıq təhdid edən Rusiya XİN başçısının müavini Qriqori Karasinin bu günlərdə İrəvana etdiyi səfərin əsas hədəfi də böyük ehtimalla bu olub: Paşinyanın "iki stul" mövqeyi ilə nə etmək istədiyini dəqiqləşdirmək. Yeni hökumətin Rusiyaya sədaqətli olduğuna və Qarabağ məsələsində pərdəarxası oyunun gedib-getmədiyinə əminlik hasil eləmək.

"Qriqori Karasinin Ermənistana səfərinin məqsədi İrəvanın Qarabağla bağlı elə də aydın olmayan mövqeyini dəqiqləşdirmək olub". Bunu "Sputnik Ermənistan"a açıqlamasında erməni politoloq Yervand Bozoyan deyib (axar.az).

"Karasinin səfəri daha çox qeyri-rəsmi xarakter daşıyır. Paşinyanın İlham Əliyevlə Davosdakı görüşündən və Con Boltonla müzakirəsindən sonra hansısa prosesin getməsi ilə bağlı təəssürat yarandı. Erməni ictimaiyyətinin çoxunda narahatlıq var. Rusiyada da həmçinin ABŞ-ın Qarabağın həlli təşəbbüsünü üzərinə götürməsi ilə bağlı narahatlıq özünü göstərirdi. Rusiya başa düşmək istəyir ki, yaxın gələcəkdə Ermənistandan danışıqlar prosesi çərçivəsində hansı mövqeyi gözləmək olar. Hazırda çox ziddiyyətli proses gedir, prinsiplər aydın deyil. Erməni hökuməti Madrid prinsiplərinin dəyərləndirilməsindən yayınır, amma buna qarşılıq heç bir baza göstərmir" - erməni ekspert bildirib.

*****

Beləliklə, bir daha qənaət hasil olur ki, Rusiya daha çox Qarabağ məsələsinin həllindən və ya bu məsələdə ciddi irəliləyişdən narahatdır, nəinki konfliktin uzanmasından. Çünki Moskvada Qafqazın "Qordiyev düyü"nün qalmasının önəmini hamıdan yaxşı bilirlər..

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Paşinyan niyə İrana can atır?..



**Hüseynbala SƏLİMOV**

**Yanvar ayında Ermənistanın baş naziri, sözün lap əsl mənasında, diplomatik fəallıq göstərdi: əvvəlcə Davos və Moskva, daha sonra isə Almaniyaya rəsmi səfər...**

Amma bizim fikrimizcə, N.Paşinyanın "diplomatik qrafik"ində ən maraqlı məqam tamam başqa faktdır; fevralın təxminən sonlarında o, qonşu İrana rəsmi səfərə hazırlaşır.

Siyasi analitiklər və politoloqlar artıq qarşıdakı bu səfərlə bağlı ən müxtəlif sxemlər qururlar. Bir çoxu belə hesab edir ki, Almaniyaya baş çəkməklə Paşinyan işarə verdi ki, müəyyən şərtlər daxilində, daha dəqiq desək, siyasi və xüsusən də iqtisadi dəstək müqabilində onun ölkəsi Tehrana qarşı iqtisadi sanksiyalara qoşula bilər.

Amma bizə elə gəlir ki, müvafiq izahı bir qədər fərqli müstəvidə axtarmaq lazımdır, ən azı ona görə ki, heç Avropa ölkələrinin özləri belə ABŞ-ın tələblərinə rəğmən İrana qarşı sanksiyalara dəstək verməyə elə də tələsmirlər, əksinə, bundan yayınmaq üçün müxtəlif sxemlər qururlar.

Yada salaq ki, elə bu günlərdə erməni baş naziri çox maraqlı bir bəyanatla çıxış etmiş və bildirmişdi ki, neft və qaz boruları Ermənistan ərazisindən də keçsəydi çox yaxşı olardı. Ona görə də qarşıdakı İran səfərinə məhz bu prizmadan yanaşmaq lazımdır - N.Paşinyan ölkəsini onun düşdüyü sosial-iqtisadi dalandan çıxarmaq üçün çıxış arayır...

İran neftini və ya qazını Ermənistan üzərindən nəql etmək qonşularımızın çoxdankı arzusudur. Bu ölkənin siyasət və diplomatiya adamları dəfələrlə bu cür bəyanatlarla çıxış ediblər və düşünüblər ki, enerji resurslarının nəql olunması üçün qurulan Bakı-Tiflis əməkdaşlıq modelini Tehran-İrəvan müstəvisində də təkrar edə bilərlər.

Amma bəlli olduğu kimi, bu cür meqa-layihələr çox böyük kapital qoyuluşu - ciddi investisiyalar tələb edir, hansılar ki, hazırda nə İranın sərəncamında var, nə də ki, Ermənistanın.

Hələ onu demirik ki, İran daim belə bir detalı diqqətdə saxlayır (və yaxud da saxlamağa məcburdur!) ki, Ermənistanla ticari-iqtisadi əlaqələrin genişləndirilməsi qonşu Bakının sərt, amma haqlı və ədalətli etirazı ilə qarşılaşa bilər.

Üstəlik, İranı Azərbaycanla təkcə adicə coğrafiya deyil, həm də çox dərin etno-mədəni və dini köklər bağlayır və bunların üstündən tamamilə xətt çəkmək elə də asan məsələ deyil.

Elə bir iqtisadi tərəfdaş - partnyor kimi də Azərbaycan İran üçün daha önəmli və sərfəli tərəfdaşdır, nəinki dılğır Ermənistan.

Amma regional geoiqtisadi reallıqlar ermənilər üçün qətiyyən manеə deyil, daim reallaşması mümkünsüz planlar qurmaq artıq bizim qonşularımızın bir növ milli xislətidir. Söhbət yalnız enerji resurslarının nəqlindən də getmir, hələ S.Sarkisyanın vaxtında bunlar Ermənistanı Avrasiya İqtisadi Birliyilə İran arasında özünəməxsus körpüyə çevirməyə və İranla birgə Şimal-Cənub tranzit dəhlizini reallaşdırmağa çalışırdılar.

Amma məlumdur ki, İran onda Azərbaycanla işləməyə üstünlük verdi. Di gəl, buna baxmayaraq Ankara-Tiflis-Bakı üçbucağına bənzər alternativ Moskva-Tehran-İrəvan geoiqtisadi üçbucağı qurmaq fikirləri erməniləri hələ də rahat buraxmır - özü də elə bir vəziyyətdə ki, bu axmaq və dilənçi ölkənin hətta öz vətəndaşlarının elementar sosial problemlərini belə qarşılamaq üçün imkanı yoxdur, ondan qala, böyük regional və subregional layihələr ola...

Düşünürük ki, N.Paşinyanın qarşıdakı İran səfərinin geosiyasi çalarları da var. Erməni lobbisinin səylərinə rəğmən D.Tramp Paşinyanı yüksək qəbulla şərəfləndirmədi. Odur, istisna deyildir ki, qarşıdakı səfər həm də Vaşinqtona incə bir işarədir.

Paşinyanın siyasətindəki çabalara, vurnuxmalara baxanda adamın beynindən yalnız bircə fikir keçir: bu başıbəla siyasətçi qaranlıq otaqda qara pişik axtarır və özü də yaşı bilir ki, həmin otaqda heç bir pişik-filan yoxdur.

Burada yada Gürcüstanın M.Saakaşvili dönəmindən bir detal düşür. Xatırlayırıq ki, Bakıya gələn M.Saakaşvili dedi ki, mən köməyi və dəstəyi Avropada, okeanın o biri tayında,- ABŞ-da axtarırdım, amma onu Bakıda tapdım!

İndi Paşinyanın neft və qaz kəmərləri ilə bağlı dediklərini dinləyəndə ixtiyarsız olaraq demək istəyirsən ki, axı Bakı bunları da sizə dəfələrlə təklif etmişdi, amma siz real və sərfəli dividendləri deyil, irreal-sərsəm planlarınızı üstün tutdunuz!..

İndi Paşinyan Qərb, Rusiya və İran arasında vurnuxur ki, heç olmasa, kiçik iqtisadi kömək alsın, amma onu tapa bilmir. Vaxt isə gözləmir və təsadüfi deyil, artıq opponentləri ona xatırladır ki, düz bir il keçib, amma "vəd olunmuş dağlar" yoxdur. Güman ki, o, özü də bunun fərqindədir və bilir ki, sonsuz etimad limiti olmur,- elə bir gün gələcək ki, insanlar artıq onun özündən soruşmağa və tələb etməyə başlayacaqlar...



# Ağlamalı kino idarəsi

Zamin HACI
zaminhaci@mail.ru

**Vəzifəli şəxslərə qarşı tədbirlər davam edir, zəhmətkeşlərimizi sevindirir. Misal üçün, bu yaxında mən xəbər lentində belə başlıq gördüm: "Fahişəxana işlədən vəzifəli şəxs saxlanıldı". Hadisə Sumqayıt ərazisində olmuşdu, vəzifəli şəxsi tutanlar da Sumqayıt polisi idi, ancaq təqsirləndirilən yoldaş hansı vəzifəni daşıyırmış, bu haqda bizə heç bir informasiya verilmirdi. Bundan yalnız bir nəticə çıxarda bilərik: adamın vəzifəsi elə fahişəxana, yaxud rəsmi formada desək, "əxlaqsızlıq yuvası" (yuva necə romantik, sentimental, hətta bir qədər də patriot səslənir) saxlamaq imiş. Min cür vəzifə vardır, hamısını tanımırıq ki? Üstəlik, informasiyada vəzifə səlahiyyətlərindən sui-istifadə edən bu yoldaşın axtarışda olduğu da yazılmışdı. Deməli, bunun vəzifəsinin fahişəxana direktoru (müdiri, rəisi, sədri - doğrusu bilmirəm orda vəzifənin adı rəsmi olaraq necə gedir) olması ehtimalı artır, çünki başqa dövlət vəzifəsi daşısa bunu niyə axtarışa verəydik? Ya da tərsinə, axtarışda olan adamı vəzifəyə qoymazdılar.**

Gördüyümüz kimi, idarəçilik çətin sənətdir, bunun min dənə nüansları, incəlikləri var, dünən yumurtadan çıxan uşaq-muşaqların müxalifətçilik edib dövlət işinə iddiaçı olması gülüş doğurur. 92-93-də bir dəfə gəlmişdilər, gördük da bə. Biz mürəkkəb regionda yerləşirik, bizə idarəçilik üçün peşəkar, üzü-üzlər görmüş, vəzifə pillələrindən keçmiş adamlar lazımdır. Qabaqca komsomolda köməkçi, sonra ikinci katib, daha sonra raykom katibi işləməlidir. Ondan sonra apar hər hansı yuvaya qoy, ordan istənilən quşu çıxartsın. Özü dimdiyində çör-çöp, çırpı, çarpayı-mələfə daşıyıb yuva düzəltsin. Hətta yumurta qoymadan cücə əldə etsin. Peşəkarlıq iş zamanı yaranır.

Yeri gəlmişkən, bu yaxında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar müəllim 4 idarəni ləğv etdi. Bunlardan biri Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti adlanırdı. Ancaq siz Bakının hansısa xarici əlaqə və investisiyasını görmüşdünüzmü? Paytaxta nə pul qoyulubsa, özümüzün neft gəlirlərimizdən qoyulub. O cümlədən paytaxt ətrafındakı beş-üç müəssisəni dövlət xəttiylə yaratmışıq. Bəs bu idarə indiyə qədər nə işlə məşğul olubmuş? Niyə bunun hesabını köhnə başçıdan soruşan yoxdur? Təbii, soruşmağın mənası da yoxdur, heç kim belə risk etməz, çünki köhnə başçı mövzunu, sualı qırağa qoyub elə düşük nəzm parçaları, diframblar oxumağa başlar ki, ətin tökülər, sualına peşman olarsan.

Ancaq bu investisiya dükanı hələ şükürlüsü idi, təsəvvür edin, ləğv olunan idarələrdən biri Bakı Şəhər Kino Xidməti İdarəsi adlanırmış. Hansı kinodan söhbət gedir? Xatırladım ki, Bakı ŞİH-in tərkibində ayrıca Mədəniyyət İdarəsi də var. Məntiqlə, kino üçün idarə qayırmışdılarsa, mədəniyyətin başqa qolları: rəssamlıq, teatr, musiqi, rəqs və sairə üzrə də idarələr olmalıydı. Bu mənada, keçmiş icra başçısı üzümüzə baxıb, yazığı gəlib bizə. O idarələri də düzəltsə nə edərdik? Məcbur idik büdcədən yemləyək. Mən Bakı Şəhər Kino Xidməti İdarəsinin hər halda nə iş gördüyünü öyrənmək üçün Bakı ŞİH-in baku-ih.gov.az ünvanlı saytına baxdım. (Maraqlıdır ki, orda bu idarə hələ strukturda qalırmış kimi görünür. Bəlkə ləğv etməyiblər? Nə biləsən... Ümumiyyətlə, o boyda paytaxt idarəsinin internet səhifəsi hansısa ucqar kolxozun ferma lövhəsinə oxşayır. Biabırçı bir şeydir. Düşünürəm elektron hökumət haqda rəsmi qərarları yerinə yetirməyin nəhayət vaxtı çatıbdır). Sən demə Hacıbala müəllimin bu "mini-Hollivudu" tam fəaliyyətsiz də deyilmiş! Bir dəfə Oskar mükafatı, iki dəfə Kannda palma budağı alıblar, sonra o budağı Bayılda sürüşmə zolağına sancıblar... Zarafat edirəm, yersiz həyəcanlanmaq Bakımızın sakinlərinə yaraşmaz. Uzun sözün qısası, saytdan məlum olur ki, bu kino idarəsi hətta bir sənədli kino da çəkibdir. Haçan? Bax bu yerdə kinonun ağlamalı hissəsidir: 2003-cü ildə! 16 il qabaq. İdarənin fil qulağında yatması oradakı bu cümlədən də aydın görünür: "Kino İdarəsi "Şərq-Qərb" kino festivalının keçirilməsində fəal iştirak edir". He-he. Həmin festivalı Rüstəm İbrahimbəyov müəllimin qayırdığını, hətta bir dəfə özünə birinci mükafatı verdiyini bunlar bilmir? Rüstəm müəllim it ilindən bəri hökumətə düşmən olub, həmin gülməli festival da elə o vaxtdan bağlanıb gedib işinin dalıyca.



# "Çağırsa qəzet, gələrəm redaksiyaya" - tanınmışlarla çap mediasının durumu müzakirə olundu

## Ölkənin öndə gələn simaları "Yeni Müsavat"ın çağırışına səs verdilər

**Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun maliyyələşmə şərtlərinə etdiyi dəyişiklik Azərbaycanda çap mediasının yaşayıb-yaşamaması ilə bağlı müzakirələrin yaranmasına səbəb olub. Çap mediasının sıradan çıxmasının zamanı gəldiyini deyənlərin sayı artmaqdadır. Bu mövqedə olanlar nə qədər haqlıdırlar? Doğrudanmı yazılı medianı tarixin arxivinə verməyin zamanı gəlib çatıb? Bu fikrin əksini düşünənlər necə hesab edirlər: Azərbaycanda çap mediasının yaşaması üçün hansı addımların atılmasına ehtiyac var?**

Bu və ya digər suallar dünən "Yeni Müsavat" qəzetinin təşəbbüsü ilə eyni adlı Media Qrupun redaksiyasında müzakirə olundu. Millət vəkilləri, baş redaktorlar və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbir həm də "Yeni Müsavat"qəzetinə abunə yazılışı kampaniyası ilə müşayiət olundu.

Tədbiri giriş sözü ilə açan **"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu** iştirakçıları salamladıqdan sonra bildirdi ki, çap mediası ilə bağlı yeni şərait formalaşıb: "Çap mediası ilə bağlı yeni tələblər, şərtlər var. Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun yeni şərtləri var. İlk olaraq bildirim ki, bu Fond olmasaydı, yazılı media bu günə gəlib çatmazdı. Bəri başdan deyim ki, biz - "Yeni Müsavat" qəzeti o Fondun maliyyələşmə şərtlərinə cavab veririk. İstər tiraj, istərsə də satış sahəsində problemimiz yoxdur. Amma ümumilikdə qəzet sənayesi üçün böyük problemlər var. O problemlərlə bağlı sizlərin münasibətinizi, baxışlarınızı öyrənmək istəyirik".

R.Arifoğlu yeni situasiyada daha az sayda qəzetlərin daha böyük dəstəklə yola davam etmək mərhələsinin gəldiyini vurğuladı: "Bu baxımdan, yaranmış vəziyyət iddialı və potensiallı qəzetlər üçün yeni bir şansdır. Yenidən formatlanma, yenidən məzmunlaşma və bu prosesdə səviyyəli oxucular kimi, sizlərin fikri bizim üçün maraqlıdır. Bəli, bir çoxları hesab edir ki, qəzetlər - yazılı media bütünlüklə meydandan çıxmalı, öz yeni "nyu-media"ya verməlidir. Bəlkə bir başqası qəzet oxumağı yeni mediadan üstün tutur, qəzetlərin yaşamasının tərəfdarıdır. Sizləri dəvət edərkən bir məqsədimiz də bu olub ki, rəy və təkliflərinizi eşidək, mövqeyinizi bizimlə bölüşəsiniz. Eyni zamanda istəyirik ki, qəzetimizin imkanlarını dostların vasitəsilə bir qədər böyüdək. Çünki Azərbaycanın rayonlarında, kəndlərində, elə Bakıda elə insanlar var ki, qəzet almağa imkanları çatmır, saytları da internetdən oxuya bilmir. Bunu nəzərə alaraq daha çox beləsi üçün abunə kampaniyasına start verdik. Sizlərin abunə olduğunuz əlavə nüsxələri imkanı olmayan şəxslərə çatdıracağıq".





"Yeni Müsavat" qəzetinin qurucu baş redaktorunun sözlərinə görə, hazırda ölkədə çap mediası ilə bağlı ciddi problemlər var: "Kağızın qiyməti ilyarım əvvəlki ilə müqayisədə 2 dəfə bahalaşıb - tonu 1606 manatdır. Bizim tirajımız 5100-5700 arası dəyişir. Bir aylıq kağız məsrəfimiz 12 min manatdır. KİVDF-dən isə ayda 10 min manat dəstək alırıq. Bir aylıq çap xərci 4500 manat, daşınma xərci 1500 manatdır. Yəni bu üç fraqment üzrə aylıq sərfiyyatımız 17 -18 min manat təşkil edir. Bu, çox böyük bir məsrəfdir. Belə bir halda Dövlət Fondu təklif edir ki, real gücü olan, tarixi olan, kollektivi olan qəzetlərlə davam etmək istəyirik. Bu, artıq o deməkdir ki, say az olsa da, dəstəyin keyfiyyəti və kəmiyyəti artacaq. Bu da bir şans, imkan yaradır ki, Azərbaycan mediasının müasir dünya standartlarına yaxın olan, ona uyğunlaşan nümunələri olsun. Bu, yazılı media üçün çox əhəmiyyətlidir. Bunu nəzərə alaraq, sizin fikirlərinizi almaq qərarına gəlmişik".

**Tanınmış jurnalist İlhamiyyə Rza** Azərbaycanda xəbəri, məlumatı qəzetdən - yazılı mediadan oxumaq istəyən böyük bir kütlənin olduğunu söylədi: "Bu kontingentə hesablanmış bir qəzet çıxartmaq mümkündür. Yayım işlərini genişləndirməklə qəzetin tirajını da artırmaq mümkündür. Burada qəzetin rəngli və ya rəngsiz olması önəm daşımır. Əsas orada yer alan mövzular, analitik, araşdırma yazılardır. Yəni informasiyanı almaq yolları çoxdur, amma analitik materialları hər yerdən almaq mümkün deyil. Qəzeti məhz bu materialların əldə olunacağı əsas mənbəyə çevirmək lazımdır. Şərt deyil ki, 15-20 qəzet olsun. 5-6 qəzet qalsın, amma rəqabət qabiliyyətli, oxucunu cəlb edəcək materialları onlardan əldə etmək mümkün olsun".

**Milli Məclisin üzvü Fəzail Ağamalı** bildirdi ki, hər günü "Yeni Müsavat"ı oxumaqla başlayır: "Hər gün sürücüm arxamca gələndə bir dənə "Yeni Müsvat" alır, mən onu oxuyub sonra işə gedirəm. Mən samballı, çağdaş Azərbaycan tarixinin simvolu olan qəzetlərin ləğvinin qəti əleyhinəyəm. Buna görə də hesab edirəm ki, qəzetlər dəstəklənməlidir. Bu gün siz nə müxalifət qəzetisiniz, nə də iqtidar. Siz Azərbaycan vətəndaşının qəzetisiniz. Bu qəzetdən hərə öz dünyagörüşünə uyğun material tapıb oxuya bilir. Mənim üçün ən əhəmiyyətlisi isə budur ki, sizin qəzetdə hər gün Qarabağ münaqişəsinə dair materiallar dərc olunur. Qəzetlər həm də Azərbaycan tarixinin bir parçasıdır, gələcək tədqiqatçılar üçün bəlkə də yeganə mənbədir. Elektron vasitələrin belə imkanları yoxdur. Bu baxımdan, oxucunun ehtiyaclarını ödəyə bilən "Yeni Müsavat" kimi qəzet yaşamalıdır".

***R.Arifoğlu iştirakçılara üz tutaraq onları qonorarsız "Yeni Müsavat"a köşə yazmağa səslədi.***

**QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Vətəndaşların Əmək Hüquqlarını Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov** konkret təkliflərlə çıxış etdi: "Mən BMT Ali Komissarlığı ilə yaxından əməkdaşlıq edirəm. Onların saytının yuxarısında qırmızı bir düymə olur: "Donation" . Yəni ianə ödənişi üçün bölməyə keçid. Siz də xüsusi hesab yaradaraq Azərbaycandakı, eləcə də xarici ölkələrdəki oxucuların yardım etməsi üçün saytdan ora keçid verə bilərsiniz. Bundan əlavə, elektron abunə yazılışı sistemini yaratmaq olar. Eyni zamanda sizdə rəyləri, müsahibələri dərc olunan şəxslər üçün ödənişli xidmətlər təklif edə bilərsiniz - illik, yaxud 6 aylıq dövrdə dərc olunan rəy və müsahibələrini arxiv şəklində yığıb verirsiniz. Yaxud PDF formatında elektron arxiv verirsiniz. Daha sonra həmin şəxslərin müsahibə və rəylərini kitab halında çap edib, imza gününü təşkil edirsiniz. Belə üsulla əlavə gəlir əldə edərsiniz". S.Məmmədov bildirir ki, dünyanın elektron medianın ən yüksək inkişaf tapdığı ölkələrində belə yazılı mətbuat var.

**"Teleqraf" Holdinqin rəhbəri Aynur Camalqızı** Azərbaycanda hazırda mövcud olan yazılı media bolluğunun tərəfdarı olmadığını dedi: "Minlərlə tirajla çap olunaraq oxunmadan maklaturaya çevrilən qəzetlərin olmasına ehtiyac yoxdur. Dünya dəyişir, print media aktuallığını itirir. Düşünürəm ki, yeni texnologiyalara uyğunlaşmağın vaxtı çatıb, hətta keçib. Qəzetlərə dövlət dəstəyi formasında süni nəfəs verməklə nə qədər davam etmək olacaq? Ölkədə qəzetçilik ənənəsini saxlayan bir neçə qəzetin olması kifayətdir. Onlar da oxucu marağına uyğun materiallar hazırlamalıdılar"

**Milli Məclisin üzvü, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa** hesab edir ki, qəzetlərə dövlət dəstəyi davam etdirilməlidir: "Bütün ölkələrdə qəzetlər reklam hesabına ayaqda qalırlar. Bizdə isə reklam bazarı elə böyük deyil. Dövlət mədəniyyət və incəsənətə, ədəbiyyata ayırdığı kimi, qəzetlərə də maliyyə dəstəyi verməlidir. Lakin bu dəstək 5-6 tarixi kökü olan qəzetə verilməlidir. Hesab edirəm ki, ölkədə nüfuzu olan sanballı qəzetlər yığışıb ölkə prezidentinə müraciət etməlidilər. Biz də millət vəkili olaraq müraciəti dəstəkləməyə hazırıq".

R.Arifoğlu deputatın təklifinə cavab olaraq ölkə rəhbərliyinin bu məsələdə eyni rəydə olduğunu qeyd etdi: "Bizim iki əsas problemimiz var. Metroda yayımın bərpa olunması və qəzet kağızı idxalına tətbiq olunan ƏDV. Biz hər gün metroda 2 min nüsxə qəzet satırdıq. Eyni zamanda ƏDV tətbiq olunanadək kağızı 700 manata alırdıq. İndi kağız həm də devalvasiya səbəbindən 1600 manatdır. Bizim xahişimiz budur ki, qəzet kağızı ƏDV-dən azad olunsun, metroda yayım bərpa edilsin".

**Milli Məclisin üzvü Çingiz Qənizadə** bildirdi ki, tələbat olan qəzetlər yaşadılmalıdır: "Metroda yayımın bərpa olunması və kağız idxalının ƏDV-dən azad edilməsi üçün müraciət hazırlaya bilərik. Bundan əlavə, rayonlarda, kəndlərdə yayımın təşkili üçün də addımlar atılmalıdır. Rayonlarda yazılı mətbuatın oxucuları daha çoxdur".

**KİVDF Müşahidə Şurasının üzvü Müşfiq Ələsgərli** yazılı mediadan bütünlüklə online mediaya keçid üçün ölkənin hazır olmadığını dedi: "Bunun üçün çoxsaylı qanunlar qəbul edilməli, bir çox qanunlara dəyişiklik olunmalıdır. Mətbuat Şurasının adının Media Şurasına çevrilməsi nəzərdə tutulur, bununla bağlı qanun layihəsi də hazırlanır".

**Mətbuat Şurasının sədri, Milli Məclisin üzvü Əflatun Amaşov** hesab edir ki, qəzet bir salnamə, bir tarixdir: "Alırsan əlinə, qoxulayırsan, oxuyursan. Yüz il də keçəndən sonra qəzetdən öz dövrünün ab-havası gəlir. Bu baxımdan, qəzetlər yaşamalıdır, yaşayacaq da. Bu gün Böyük Britaniyada, Almaniyada, Fransada, ABŞ-da müxtəlif mövqelərinin yayıcısı olan 3-5 qəzet fəaliyyət göstərir. Onların hər birinin öz oxucu kontingenti var". Ə.Amaşovun fikrincə, qəzet yayımındakı problemlər aradan qaldırılmalı, qəzetlər özləri satış həcmlərini artırmaq üçün müxtəlif üsullardan istifadə etməlidilər.

**QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, "Şəffaflıq Azərbaycan" Təşkilatının icraçı direktoru Əliməmməd Nuriyev** qəzetlər üçün sağlam rəqabət mühitinin yaradılmasının, reklam bazarının genişləndirilməsinin vacib olduğunu dedi: "KİVDF yeni şərtlərə uyğunlaşmaq üçün qəzetlərə daha çox vaxt verməlidir. Eyni zamanda dövlətin dəstəyi davam etdirilməlidir. "Yeni Müsavat" cümhuriyyətimizin bərpasında iştirak etmiş bir mətbuat orqanıdır, onun yaşaması üçün əlimizdən gələni etməyə hazırıq".

**Sabiq maliyyə naziri Fikrət Yusifovun** fikrincə, hətta bir müstəqil qəzet qalmalı olsa belə, o, mütləq "Yeni Müsavat" olmalıdır: "Dünya təcrübəsinə baxmalı, effektiv təcrübələrdən istifadə olunmalıdır".

**Milli Məclisin üzvü Elşən Musayev** həm də həmkarı Zahid Orucun adından çıxış etdiyini bildirərək qeyd etdi ki, metroda yayımın bərpa olunması çox aktual məsələdir: "Mən həmişə metroda insanların "Yeni Müsavat" oxuduğunu görmüşəm. Bunu bərpa etmək üçün müraciət hazırlayaq, biz də onu imzalamağa hazırıq".

**Ümid Partiyasının sədr müavini İlahə Sadıqovanın** fikrincə, gələcəkdə Azərbaycan tarixini öyrənmək üçün ən etibarlı mənbə yazılı mediadır: "Başqa mənbə tapmaq mümkün deyil. Elektron medianın yaddaş həcmi var, 4-5 ildən bir arxiv silinir. Buna görə də yazılı mətbuatın yaşaması tariximiz baxımından zəruridir".

**Mətbuat Şurası İdarə Heyətinin üzvü Ümid Rəhimoğlu** bildirdi ki, tədbirdə yalnız "Yeni Müsavat"ın deyil, bütün ölkə mətbuatının problemləri müzakirə olunur: "Uzun illərdir abunə olduğum 4 qəzetdən biri "Yeni Müsavat", digəri "525-ci qəzet"dir. "Yeni Müsavat"ın uğurunun əsas səbəbi bazarın nəbzini tuta bilməsidir. Qəzetlər üçün ən ciddi problem yayımla bağlıdır. Bu problem həll olunsa qəzetlər üçün böyük nəticə verəcək".

**Politoloq Nəzakət Məmmədova** qeyd etdi ki, öz yaradıcılığını "Yeni Müsavat"la əməkdaşlıq başlayana qədərki və sonrakı mərhələlərə bölmək olar: "Bu qəzetlə əməkdaşlıq mənə çoxsaylı oxucu kütləsinə çıxış imkanı verdi. Bilirsiniz, Avropada qəzet oxumaq bir kulta çevrilib. Bu baxımdan, Azərbaycanda da qəzet oxumağa davam etmək istəyənlər çoxdur. Ona görə də yazılı media, onun flaqmanı olan "Yeni Müsavat" yaşamalıdır". N.Məmmədova təklif etdi ki, təyyarələrdə, dəmiryolunda sərnişinlərə verilən qəzetlər sırasına "Yeni Müsavat" da əlavə olunmalıdır.

**AK Partiyasının başqanı Tural Sadıqlı** hesab edir ki, yayım sahəsindəki problemlər, yazarlara və yazılara qoyulan məhdudiyyətlər aradan qaldırılarsa, qəzetlər özləri yaşamaq üçün yol tapacaqlar: "Bütün rayonlara yayım olarsa, qəzetlər satış problemini yaşamaz. Eyni zamanda sözə, yazılara qoyulan məhdudiyyət ləğv edilərsə, oxucu problemi də olmaz. Düşünürəm ki, söhbət qəzetlərə balıq verməkdən deyil, onlara balıq tutmağı öyrətməkdən getməlidir".

**"HİLAL" İCTİMAİ BİRLİYİNİN sədri Arzuman Abdulkərimov** onunla "Yeni Müsavat" qəzetini uzun illərin dostluğunun bağladığını dedi: "Bu qəzet hazırda dövlətçiliyin qorunması uğrunda mübarizə aparmaqdadır. Bu gün ölkədə müxtəlif fikirlərin yayılmasına ehtiyac var. Bunu isə ən yaxşı qəzetlər edə bilər. Xüsusilə rayon yerlərində qəzetlər daha çox oxunur". A.Abdulkərimovun fikrincə, yazılı medianın yayım və reklam problemləri həll olunmalıdır: "Yazılı media sıradan çıxarsa, boşalan meydan xaricdən idarə olunan qüvvələrin əlinə keçə bilər. Buna yol vermək olmaz".

**QHTxeber.az saytının rəhbəri Sənan Nəcəfov** bildirdi ki, müasir dövrdə mediaya biznes kimi baxmaq lazımdır: "Bu baxımdan, Rauf Arifoğlu peşəkar bir menecer, bu sahənin əsl bilicisidir. Mən QHT-lərə Dövlət Dəstəyi Şurasının saytının rəhbəriyəm. Düşünürəm ki, biz tərəfdaş QHT-lərlə media nümayəndələrinin birgə müzakirələrini təşkil edə bilərik".

**Şair-jurnalist Əkbər Qoşalı** qəzetlərin yaşamasının gərəkdiyini, bunun üçün hamının əlindən gələni etməyə hazır olduğunu vurğuladı.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** bildirdi ki, kimlərsə yazılı medianın məhvinə çalışır: "Bunun qarşısı alınmalı və qəzetlərin problemləri ölkə rəhbərliyinin diqqətinə çatdırılmalıdır. Yazılı qəzetlər müharibə zamanı ən vacib informasiya vasitəsidir. Biz mütləq müharibə edəcəyik, buna görə də qəzetlər yaşamalıdır. "Yeni Müsavat"ın keçdiyi yol gözlərimizin önündə olub. Çox çətinliklərdən keçmiş mərkəzçi bir qəzetdir. Onun yaşaması üçün dəstəyimizi əsirgəməyəcəyik".

**"Yeniçağ" Media Qrupunun nümayəndəsi Araz Zeynalov** hesab edir ki, R.Arifoğlu elə bir menecerdir ki, "Yeni Müsavat"ı bütün çətinliklərdən çıxarmağı bacarır: "İnanırıq ki, bu çətinliklərdən də çıxacaqsınız. Bu sahədə bizdən nə dəstək lazım olarsa, hazırıq".

**Sonda R.Arifoğlu bir daha iştirakçılara tədbirə qatıldıqlarına görə təşəkkürünü bildirdi: "Burada çıxış edib abunə yazılıb gedən bütün dostlara təşəkkür edirəm. Bu, bizim üçün deyil, bütövlükdə yazılı media üçün təşkil olunmuş bir tədbirdir. Biz Azərbaycanda yazılı mediaya olan baxış açısına yenidən qayıtmaq istədik. Bu gün KİVDF məsrəfləri və Prezidentin çap mediasına verdiyi dəstəyi optimallaşdırır. Azərbaycana rəngli, ticari görünüşü cəlbedici olan bir neçə qəzet lazımdır. İndi bu proses başladılıb. Bizim bu prosesdən uğurla çıxacağımıza əminəm. Burada çox dəyərli fikirlər, təkliflər səsləndirildi. Bir çox təkliflərin icrasına dərhal başlamaq niyyətindəyik, inşallah ki, həmişə olduğu kimi uğur bizimlə olacaq".**

*Qeyd:* *16-cı səhifədə də tədbiri əks etdirən fotolar yerləşdirilib.*

❑ Dünya SAKİT,
Fotolar Elçin Əkbərindir,
"Yeni Müsavat"













YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

# Donuz qripindən marta necə sağ çıxaq-virusoloqlardan ilginc açıqlamalar

## Səhiyyə Nazirliyinin baş epidemioloqu deyib ki, gürcülər özlərini qorumadığı üçün xəstəlikdən ölüblər; "Bizimkilər ağıllıdır, özlərini qoruyurlar" deyən professor mart ayına kimi...

**Rəsmi şəxslərin Azərbaycanda donuz qripi və qızılca ilə bağlı açıqlamalarına baxmayaraq, cəmiyyətin müəyyən kəsimində xəstəliklə bağlı narahatlıq qalmaqdadır.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş epidemioloqu **İbadulla Ağayev** həm yayılmış şayiələr, həm xəstəliyin nə qədər qorxulu olub-olmaması ilə bağlı modern.az-a danışıb. O, əminliklə deyib ki, Azərbaycanda donuz qripi yoxdur: "Heç bir xəstə, heç bir insan belə bilməz ki, o hansı virusla xəstələnib. Xəstəlik yalnız laboratoriya üsulu ilə müəyyənləşdirilə bilər. Əgər hər hansı bir insan xəstəliyilə bağlı şübhələnirsə, poliknikalara, xəstəxanalara müraciət edə bilər. Xəstəliyi müəyyən etmək üçün boğazdan yaxma götürülür və laboratoriyada müayinə olunur. Müayinə nəticələri bəlli olandan sonra insanda hansı virusun olduğu müəyyənləşir". O əlavə edib ki, hazırda 3 yerdə -1 saylı Kliniki Tibbi Mərkəzdə, Ağciyər Xəstəlikləri İnstitutunda, 7 saylı Uşaq Yoluxucu Xəstəlikləri Xəstəxanasında xüsusi palatalar ayrılıb. "2006-cı ildə quş qripi təhlükəsi yarananda da xüsusi palatalar ayrılmışdı. Əgər doğrudan da kəskin hal yaranarsa, o xəstələr həmin xəstəxanalara yerləşdiriləcəklər. Amma hazırda buna ehtiyac yoxdur. Ayrılmış palatalarda heç bir təhlükəli, ağırlaşmış xəstə yoxdur", - deyə professor bildirib.


Cəlal İsayev


İbadulla Ağayev

Epidemoloq deyib ki, kütləvi müayinə aparsaq, bu gün çox adamda H1 N1 virusu aşkarlanar: "Həmin müayinəni lap Amerikada da aparsaq, çıxacaq. Burada təhlükəli bir məsələ yoxdur. Virus təbiətdə həmişə dövr edir və orqanizmi zəif olan insanları tez yoluxdurur. Risk qrupunda olanlar azyaşlılar, tibb işçiləri, 65 yaşdan yuxarı olan insanlar, hamilə qadınlar risk qrupuna daxildir. Bu insanlar diqqətli olmalıdır. Həmçinin işdə, kollektivdə xəstə olan insanların işə gəlməməsini xahiş edin. Məcburən gəlibsə belə, maska taxsın. İmkan varsa, belə adamları, ümumiyyətlə, işə buraxmayın".

Epidemoloq deyib ki, marta doğru mütləq şəkildə qripə yoluxma azalacaq: "Dünyanın bütün ölkələrində belə qaydalar var. Bundan sonra da olacaq. Azərbaycan səhiyyəsi, həkimlərimiz, Allah uzaq eləsin hər hansı epidemiya şəklində xəstəlik baş verərsə, onun qarşısını almaq iqtidarındadır. Heç kim, heç nədən narahat olmasın. Gürcüstanda yayılan adi qripdir. O da A(H1N1) virusudur və mövsümi xarakter daşıyır. Allah ölənlərə rəhmət eləsin. Bizdə də epidemioloji vəziyyət o həddə çatsa, ölümə səbəb ola bilər. Gürcülər özlərini qorumayıblar. Xəstəliyi xroniki hala salıb, kəskinləşdirəndən sonra ölüblər. Həkimə gec müraciət ediblər. Bizimkilər ağıllıdırlar, özlərini qoruyurlar".

"Ölkədə qızılcaya yoluxma halları qeydə alınıb. Lakin bununla bağlı ciddi artım baş verməyib. Yoluxma halları adətən yaşlı insanlar, əsasən də tələbələr, yuxarı sinif şagirdləri arasında müşahidə olunur. Bu da onların vaxtilə peyvənd olunmaması ilə əlaqədardır. Hətta peyvənd olunmuş olsalar belə, bunun da müddəti var. Çünki peyvəndlərin təsiri 10-13 ildən sonra zəifləyir və yoluxma halları yenidən qeydə alınır". Respublikanın baş infeksionisti **Cəlal İsayev** belə deyib. O bildirib ki, bu xəstəlik hava-damcı infeksiyası olduğundan insanlar maksimum dərəcədə özlərini qorumağı bacarmalıdır: "Yeni belə xəstələr insanların sıx olduqları yerlərə getməməli, ictimaiyyət arasına mümkün qədər az çıxmalıdırlar. Bu, digər insanların virusa yoluxdurulmaması baxımından çox vacibdir. Çünki xəstəliyin əlamətləri meydana çıxandan sonrakı 4 gün müddətində bu, ətrafdakılar üçün təhlükəli ola bilər". Baş infeksionist əlavə edib ki, mart ayının əvvəlində peyvəndləmə işlərinə başlanılacaq.

C.İsayev həmçinin Azərbaycanda H1N1 virusunun yayılması haqqında məlumatlara da münasibət bildirib. Onun sözlərinə görə, bu virus ağır gedişə malik deyil: "Ağır gediş o zaman ola bilər ki, insan mövsümlə əlaqəli qrip olduqda özünə diqqət etməsin. Yəni xəstə insanlar bilərəkdən işə və ya başqa kollektivə gedərək yoluxmanı artırmış olur. Ev şəraitində olsa belə, müalicəni vaxtında almış olsa, xəstəliyin ağırlaşma forması da az olar. Ağırlaşma halı olanda da, dərhal həkimə müraciət edib bunun qarşısını ala bilər. Ümumi götürsək bütün xəstəliklərin hamısı təhlükəlidir. Əsas odur ki, insanlar özlərinə düzgün qulluq etməyi bacarsınlar".

Bakı şəhərindəki uşaq bağçalarında qızılca və H1N1 virusuna yoluxma faktı qeydə alınmayıb. Bu barədə report-un sorğusuna cavab olaraq Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində olan Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsindən bildirilib.

Qeyd olunub ki, bununla bağlı mütəmadi profilaktik tədbirlər görülür.

# Avropada murdar ət kabusu: səfərdə olanda nə yeyək...

## Eyyub Hüseynov leş ətlə bağlı ilginc faktlar açıqladı

**Avropada yenidən murdar ət kabusu yaşanır. Belə ki, Polşadan göndərilən 150 kiloqram mal əti Fransada istehlakçılara satılıb. Müəyyən edilib ki, ət Fransaya xəstə inəklərin kəsildiyi Polşa sallaqxanasından daxil olub. Bütövlükdə isə həmin ünvandan Fransaya 795 kiloqram ət gətirilib. Bu səbəbdən ölkədə narahatlıq yaranıb.**




Bu məsələyə görə təkcə Fransada istehlakçılar narahat deyil. Araşdırmalar göstərib ki, xəstə inək əti Polşadan digər Avropa Birliyi ölkələrinə də ixrac edilib. Bu barədə xəbəri Fransa Kənd Təsərrüfatı Nazirliyi cümə günü yayıb.

2017-ci ildə oxşar hadisə İspaniyada da baş vermişdi.

Azərbaycanda da tez-tez leş ət qalmaqalı yaşanır. Buna müvafiq qurumlar tərəfindən tədbirlər görülsə də, mənşəyi məlum olmayan ətlərin saxlanması ilə bağlı tez-tez xəbərlər dərc olunur.

Eyni zamanda ölkəyə xaricdən də bu kimi ətlərin gətirilməsinə cəhdlər olunur. Belə ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin yaydığı məlumata görə, 2018-ci ilin iyul-dekabr ayları ərzində Gürcüstandan idxal edilmiş Ukrayna mənşəli 34,2 ton mal əti at əti ilə qarışıq olduğu üçün ixracatçı ölkəyə geriyə qaytarılıb.

"Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri **Eyyub Hüseynov** bir sıra maraqlı faktlara toxunub. O, bildirib ki, dünyada insanlara bilərəkdən bu cür ətlər satılır: "Pullu tibb dünyanın hər yerində var və onlar istəyirlər ki, xəstələri çox olsun. Eləcə də xəstəxanaları avadanlıqlarla təchiz edən firmalar da arzu edirlər ki, istehsal etdikləri məhsullar daha çox satılsın. Bunun üçün də xəstə çox olmalıdır. İnsanların sağlamlığının qeydinə qalan heç bir qurum yoxdur. Avropa İttifaqı və digər bu kimi qurumların heç biri dünyada insanların sağlamlığını düşünmür. Ölkəsində 80 faiz təqaüdçünün olması heç bir dövlətə lazım deyil. Çünki onlar dövlət büdcəsindən yeyirlər. Elə kapitalizmin mahiyyətində də insanlardan istənilən yolla pul almaq dayanır. Bunun üçün də istehlakçı və qazanc rol oynayır. İstehlakçının pulunu qoparmaq üçün bazar fəndlərindən istifadə edilir. Sovet dönəmində səhiyyə pulsuz idi, ancaq orduda gənclərə pulsuz siqaret paylayırdılar. Leş ət məsələsi də sadaladığım proseslərin bir parçasıdır. Murdar ətlərin satılması bütün dünya ölkələrində var. Bütün səhiyyə təşkilatları və digər bu kimi qurumların hamısı istehlakçıları aldadırlar. Bunu Beynəlxalq İstehlakçı Təşkilatının üzvü kimi deyirəm. İnsanlar bütün dünyada bir mifə inanırlar ki, guya onların sağlamlığı uğrunda mübarizə aparan qurumlar var. Məsələn, dünyada normalar var ki, təhlükəli maddələr qidanın tərkibinə nə qədər qarışdırıla bilər. Ancaq heç kim demir ki, həmin məhsuldan hansı miqdarda yemək olar. Bu heç bir qanunda tənzimlənmir. Belə çıxır ki, sən zərərli maddənin milliqramla qarışdırıldığı məhsuldan çox yesən, ölə də bilərsən. Ancaq buna diqqət edən yoxdur".

Ekspert bildirib ki, insanlara bu ətlərdən xeyli xəstəliklər keçir:

"Elm artıq sübut edir ki, insanların bugünkü xəstəliklərinin təxminən 50-60 faizi heyvanlardan keçib. İstehlakçılar özləri özlərini aldadırlar. Bu, insanların sovet dövründə parlaq kommunizmə, Leninə inanmasına bənzəyir. Beş-on insanı aldadana dələduz deyib, həbs edirlər. Ancaq yüzlərlə insanı aldadana böyük siyasətçi adı verirlər. Murdar ət, təhlükəli qida hər zaman olacaq. Azərbaycan da bu prosesdən kənarda deyil. Murdar qidanın, ətin yayılmasının qarşısını yalnız milli xüsusiyyətlər ala bilər. Vaxtilə Azərbaycanda kimsə murdar olmuş heyvanı kəsərdisə, onun 7-ci nəslinin başına çaxırdılar ki, sənin baban murdar ət satıb. Avropada isə belə dəyərlər yoxdur. Ona görə də orada bu kimi ətin yayılmasını heç milli dəyərlər də önləmir. Nəticə olaraq demək olar ki, Avropadan da Azərbaycana təhlükəli, murdar ət gətirilə bilər. 20 ilə yaxındır ki, murdar ətlə mübarizə aparırıq. Lakin yenə də rayonlardan Bakıya bu kimi ətlər göndərilir. Leş ətlərin yayılmasının qarşı ən uğurlu əməliyyatı Daxili İşlər Nazirliyinin aş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparıb. Onlar dəfələrlə bunu ifşa edib, hüquqi qiymət verilməsi üçün addım atıblar. Baytarlıq idarələri bu kimi halları tapanda, cərimələyib buraxırlar. Daxili İşlər Nazirliyi isə onlarla bağlı hüquqi addım atır. Bu, çox vacib haldır. Düşünürəm ki, bu kimi məsələlər Daxili İşlər Nazirliyinə həvalə olunmalıdır".

E. Hüseynov tövsiyə edib ki, camaat gözləri ilə kəsildiyini görmədikləri əti almasınlar: "Bir neçə gün öncə dövlətin böyük dəstəyi ilə Nizami 154 ünvanında iri yarmarka yaradıldı. "Kənddən şəhərə" adlanan bu yarmarka Kənd Təsərrüfatı Nazirliyi ilə İqtisadiyyat Nazirliyinin proyektidir. Orada camış ətinin dana əti yerinə satıldığını öyrəndim. Bu haqda onların müdiriyyətinə məlumat versəm də, cavab yoxdur. İnsanlar ona görə də gözləri ilə gördükləri heyvanın ətini alsınlar. Artıq nəzarət edən orqanlar insanların gözündən düşüblər. Əhali bazara girəndə yüzlərlə ət görür və almağa ehtiyat edir. Nəticədə insanlar qəssabxanaya üz tuturlar. Buna görə də qəssabxanalarla mübarizə də öz effektini vermir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# İrəvanın Qarabağ danışıqlarını pozmağa çalışmasının pərdəarxası

## Ermənistanın hökumət başçısı xalqları sülhə hazırlamaqla bağlı anlaşmanın ardınca radikal mövqeyinə qayıtdı; **politoloq:** "Paşinyan öz hakimiyyəti üçün qorxur, təşəbbüskarlıqdan çəkinir və heç bir siyasət yürütmək istəmir..."

**Ermənistanın baş naziri Nikol Paşinyan müxaliflərin ultimativ bəyanatlarının qarşılığında sülh danışıqları ilə bağlı üzərinə götürdüyü öhdəliklərdən geri çəkilməyə vadar oldu. Hər halda görünən budur ki, Paşinyan ən azı Davos görüşündən sonrakı qədər normal mövqe sərgiləmir, radikal bəyanatlarla çıxış etməklə sələflərini xatırladır.**




Ötən həftə Paşinyan bildirdi ki, Ermənistan hökuməti Qarabağ tənzimlənməsində "sülh əvəzinə ərazilər" formulunu müzakirə də etmir. Baş nazir bunu keçmiş prezident Levon Ter-Petrosyanın siyasətini davam etdirdiyi və ərazilərin təhvil verilməsi məsələsini müzakirə etdiyi ilə bağlı sualı cavablandırarkən söylədi. Erməni baş nazirin "biz "sülh əvəzinə ərazilər" formulunu müzakirə də etmirik. Hökumətimiz Qarabağ üzrə əvvəlki heç bir hökumətin apardığı siyasəti aparır və paralellər aparmaq (keçmiş və hazırkı hakimiyyətlər arasında - red.) tamamilə yanlışdır" deməsi əslində sülh danışıqlardan imtinanın anonsu sayıla bilər. Absurd olanı budur ki, Qarabağ məsələsi üzrə danışıqlarının taleyi barədə sualın cavabında Paşinyan bununla xarici işlər nazirlərinin məşğul olduqlarını bildirib. "Biz Əliyevlə danışdıq ki, nazirlər bu istiqamətdə işləyirlər, həmsədrlərlə birlikdə tövsiyələrini təqdim edəcəklər, biz də onları müzakirə edəcəyik" deyən N.Paşinyan doğrudan da anlamır ki, Azərbaycan üçün sülh danışıqları yalnız və yalnız torpaqların işğaldan qan tökülmədən azad olunması üçün lazımdır. Yəni Bakı danışıq naminə danışıq aparılmasını qəbul etməyəcək.

Elə Azərbaycan prezidenti İlham Əliyev də Azərbaycanın bir qrup gənci ilə görüş zamanı növbəti dəfə torpaqların itirilməsi ilə barışmayacağını bəyan edib. "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, biz döyüş meydanında da onlardan üstünük. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks hücum əməliyyatı apararaq biz çox strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək" (AzərTAc).

Əslində bu prinsipial mövqe N.Paşinyanın son açıqlamasına tutarlı cavab da sayıla bilər.

Ermənistan rəhbərliyi fevral ayında Münhendə XİN başçılarının növbəti görüşünün keçirilməsi və hər iki ölkə liderlərinin görüşü ilə bağlı təşəbbüslərin olması halında bu cür aqressiv mövqe sərgiləməklə, təbii ki, daxili auditoriyanı sakitləşdirmək istəyir, amma buna nə dərəcədə nail olacaq, demək çətindir. Ölkəsi səfalət günündə olan Paşinyan vəziyyətdən çıxmaq üçün üzünü daxili auditoriyaya tutub sərt bəyanatlar verməsi sözsüz ki, özünüqorumaq instinqtindən irəli gəlir.

Qeyd edək ki, son zamanlar N.Paşinyanı hədəfə alan rəqibləri ondan mayın 8-də, baş nazir seçiləndən sonra verdiyi vədləri unutduğuna, Qarabağın danışıqlarda tərəf olaraq iştirakı üçün çalışacağını bəyan etməsini xatırladırdılar. Bundan sonra Qarabağda toplantı keçirən daşnaklar Paşinyana ultimatum verdilər, sonra isə Robert Köçəryan həbsxanadan tərəfdarlarına çağırış etdi. Belə bir vəziyyətdə N.Paşinyan Azərbaycan rəhbərliyinin ona düşünmək üçün verdiyi vaxtdan və əslində şansdan düzgün nəticə çıxartmaq əvəzinə, əks mövqedən çıxış etməyə başladı.

Artıq Ermənistan daxilində aqressiya dolu mövqelər bir-birini əvəzləyir - hansı ki, XİN başçılarının Paris görüşündə xalqların sülhə hazırlanması anlaşması olmuşdu.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, əslində Paşinyan radikallaşmayıb, onun mövqeyi belədir: "Paşinyan Qarabağ məsələsində addım atmayıb, ata da bilməz. Çünki hakimiyyəti itirə biləcəyindən qorxur. "Qarabağ klanı" onun zəif nöqtələrini axtarır. Fikir verin, hər dəfə Azərbaycan prezidenti ilə görüşəndən sonra "Qarabağ klanı" Paşinyan haqqında Ermənistanda şayiə yayır ki, guya torpaqları satır, Qarabağ ətrafındakı rayonları boşaldır. Əslində isə bu, belə deyil. Ona görə də Paşinyan öz hakimiyyəti üçün qorxur, təşəbbüskarlıqdan çəkinir və heç bir siyasət yürütmək istəmir".

Politoloqun fikrincə, erməni baş nazirin aqressiyası hakimiyyətini qorumaq istəyindən qaynaqlanır: "Paşinyanın radikallaşması da onunla bağlıdır ki, deyir, ümumiyyətlə, danışıqları mən aparmamalıyam, rəsmi Bakı Qarabağ separatçıları ilə danışmalıdır. Halbuki Azərbaycan heç zaman buna getməz. Yəni əslində mövqeyi bundan ibarətdir. Mən düşünmürəm ki, Paşinyanın mövqeyində hər hansı dəyişiklik olacaq".

N.Paşinyanın Davosdan sonra Rusiyaya səfər etməsi və ardınca bu ölkədən güzəştli kreditlə Su-30 SM tipli qırıcı təyyarələrin alınacağı ilə bağlı anonsun olması da qızışdırıcı amil kimi qeyd edilə bilər. Eyni zamanda Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinin İrəvana son səfəri də müxtəlif yozumlara rəvac verib. Məsələn, erməni politoloq Yervand Bozoyan deyib ki, Karasinin Ermənistana səfərinin məqsədi İrəvanın Qarabağla bağlı elə də aydın olmayan mövqeyini dəqiqləşdirmək olub.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a** dedi ki, Davosda Azərbaycan prezidenti İlham Əliyevin keçirdiyi görüş doğrudan da regional və qlobal layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm bir partnyor olduğunu göstərdi: "Buna görə də xarici dövlət və şirkətlərin nümayəndəsi layihələrin həyata keçirilməsində maneənin ancaq Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsində gördüklərini vurğulayırlar. Yəni təhlükəsizliyə təhdid yaradan bu münaqişə öz həllini tapmalıdır. Bunun da əsas səbəbkarı məhz Ermənistandır. İlham Əliyev-Paşinyan görüşündə də Azərbaycan tərəfi əsasən tərəflərin mövqelərinin aydınlaşdırması üçün bu addımların mühüm olduğunu qeyd edir. Bu görüşlərdə artıq Rusiya hiss edir ki, tərəflər təklikdə müəyyən kompromis əldə etsə, həm ATƏT-in Minsk Qrupunun üzvü, həm də regional açar fiqur kimi öz nüfuzunu itirər. Hətta bununla bir zaman mövcud olan "Lavrov planı" və s. planlar iflasa uğraya bilər. Ona görə də aktivləşməyə başlayırlar".

A.Nağıyev qeyd etdi ki, ABŞ-ın yüksək çinli diplomatı Con Boltonun münaqişə tərəflərinin rəhbərləri ilə telefon danışıqları da işğalçı ölkədə narahatlıq yaradıb: "Bundan başqa, Almaniya kansleri Angela Merkelin Paşinyanla görüşdə bir sıra bəyanatları Ermənistanda və Rusiyada birmənalı qarşılanmadı. Bundan sonra Rusiyanın Ermənistandakı səfiri Sergey Kapırkinin spiker Ararat Mirzoyanla görüşü də maraqlı idi".

Bununla yanaşı, A.Nağıyev hesab edir ki, Soros Fondunun Ermənistanda aktivləşməsi, KTMT ilə bağlı məsələnin hələ də açıq qalması, Ermənistan-İran münasibətlərinin gələcək inkişafı proseslərə təsir edir: "Ən mühüm məsələlərdən biri də Ermənistan Təhlükəsizlik Xidmətinin Köçəryanla bağlı verəcəyi açıqlamanın anonsudur. Belə bir vaxtda Karasinin də gəlişi Rusiyanın narahatlıq keçirməsinin əlamətidir. Yəni Paşinyan daxili və xarici siyasəti tarazlamasa, hər iki istiqamətdə narahatlığı arta bilər. Bu isə münaqişənin həlli ilə bağlı Azərbaycan üçün müsbət hal kimi dəyərləndirilməlidir".

"Paşinyan yaxşı dərk edir ki, Ermənistanın hazırkı çətin sosial-iqtisadi vəziyyətdən yeganə çıxış yolu Azərbaycan torpaqlarını azad etməkdir. Bunun başqa variantı yoxdur". Bu sözləri isə politoloq Fikrət Sadıqov deyib (Axar.az). O, Paşinyanın inqilab dalğasında hakimiyyətə gəldiyini xatırladıb: "Onun bütün hərəkətləri, şüarları, bəyanatları demokratik görüntü xarakteri daşıyır. Bu gün o, keçmiş Qarabağ klanından fərqli olaraq, danışıqlardan hansısa nəticə əldə edilməli olduğunu başa düşür. Bundan başqa, Paşinyan prezident İlham Əliyevlə Davosda saat yarım danışırsa, bu, Ermənistanda bir sıra dairələrdə qıcıq yaratmaya bilməz. Onlar narahatdır ki, Paşinyan Qarabağ məsələsində müəyyən güzəştlərə gedəcək. Hazırda Ermənistan bütün beynəlxalq layihələrdən məhrumdur, faktiki olaraq Cənubi Qafqazda təcrid vəziyyətdə qalıb. Onların vəziyyəti getdikcə də ağırlaşmağa davam edir".

F.Sadıqovun sözlərinə görə, Paşinyan yaxşı başa düşür ki, Azərbaycan getdikcə güclü oyunçuya çevrilir və Azərbaycanla müəyyən dil tapmaq lazımdır: "Bu, reallıqdır və bu reallığın yaranmasının səbəbkarı bizik. Amma bu, heç də o demək deyil ki, Paşinyan bu gün, ya sabah bütün torpaqları könüllü şəkildə azad edəcək və bütün məsələlər həll olunacaq. Biz buna nail olmaq üçün Ermənistana bundan sonra da güclü təzyiqlər edərək onu təcrid vəziyyətində saxlamalıyıq".

Hər halda situasiya üzü yaza doğru hərarətin arta biləcəyindən, hətta ABŞ Milli kəşfiyyatının xəbərdar etdiyi kimi, hərbi əməliyyatların başlayacağından xəbər verir. Bunun tək səbəbkarı isə Ermənistandır. Belə vəziyyətdə Minsk Qrupu situasiyanı doğru-düzgün qiymətləndirib işğalçıya xəbərdarlıq edəcəkmi?..

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

**Bakıda məşhur "Lady Sharm" mağazalar şəbəkəsinin bağlanmasının səbəbləri ilə bağlı Daxili İşlər Nazirliyi məlumat yayıb. Yayılan məlumatda deyilir ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən iqtisadi cinayətkarlıqla mübarizə, milyonlarla pul vəsaitinin büdcədən gizlədilməsi və bu qanunazidd əməllərlə məşğul olan cinayətkar şəbəkənin aşkar edilməsi istiqamətində növbəti xüsusi əməliyyat tədbiri həyata keçirilib.**

# DİN-dən "Lady Sharm"la bağlı açıqlama - 4 nəfər tutuldu

## Mağazalar şəbəkəsinin brendləri saxtalaşdırması ilə bağlı cinayət işi Çin və Türkiyəyə qədər uzana bilər



Baş İdarəyə daxil olan çoxsaylı şikayətlər əsasında paytaxt və bölgələrdə fəaliyyət göstərən "Lady Sharm" mağazalar şəbəkələrində, həmin mağazaların anbarlarında keçirilən əməliyyat zamanı çoxsaylı qanun pozuntuları, istehlakçıların hüquqlarının kobud şəkildə pozulması və müştərilərin aldanılması halları aşkar edilib. Nəticədə qeyd edilən şirkətin sahiblərindən biri, Cəlilabad rayon sakini Elnur İsmayılov, həmin şirkətin baş mühasibi Ziyarət Abbasov, şirkətin məsul əməkdaşları Valeh Qarayev və Fuad Əlizadə saxlanılaraq istintaqa təqdim ediliblər. Araşdırma zamanı müəyyən edilib ki, qeyd edilən mağazalarda satışa çıxarılan Çin Xalq Respublikasında istehsal edilən aşağı keyfiyyətli paltarların etiketləri "Lady Sharm"ın gizli sexlərində dəyişdirilib. Həmin paltarlara "Chanel", "Fendi", "Dolce & Gabbana", "Valentino", "Chiristian Dior" , "İtterre" və digər dünyaca məhşur bredlərinin saxta etiketləri tikilərək dəyərindən dəfələrlə baha qiymətə mağazalarda müştərilərə təqdim edilib. "Lady Sharm"ın fəaliyyət göstərən 12 mağazasında yoxlama aparılan zaman etiketləri dəyişdirilən saxta geyim əşyaları və xəz dəri məhsulları aşkar edilərək maddi sübut kimi götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq "Lady Sharm" mağazalar şəbəkəsinin paytaxt ərazisində fəaliyyət göstərən gizli tikiş sexi və anbarı da aşkar edilib. Həmin sexə baxış zamanı külli miqdarda saxta paltarlar, Türkiyə, İtaliya və Avropanın digər ölkələrinin geyim markalarının adları yazılmış əmtəə nişanları, həmçinin etiketlərinin hazırlanması üçün nəzərdə tutulan xüsusi avadanlıqlar aşkar olunaraq götürülüb və dövriyyədən çıxarılıb. Araşdırmalarla həmçinin "Lady Sharm" şirkətinin paytaxtda fəaliyyət göstərən sexində tikilən yerli məhsullara da saxta "Made in Turkey" və "Made in İtaly" nişanları tikildiyi məlum olub. Şirkətin anbarlarına baxış zamanı polis əməkdaşlarının peşəkarlığı sayəsində "Lady Sharm"ın "qara" mühasibatlığın aparıldığı və sistem idarəçiliyi xarici ölkələrdə olan kompüter avadanlıqları və onların içərisində olan istintaq üçün zəruri olan şirkətin gizli maliyyə hesabatları da əldə edilərək götürülüb. Həyata keçirilən zəruri əməliyyat-istintaq tədbirləri ilə "Lady Sharm" bu illər ərzində büdcədən milyonlarla manat vəsait yayındırdığı məlum olub. Qeyd edilən faktlarla bağlı Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

"Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, əməliyyatlardan biri "Binə" Ticarət Mərkəzində baş tutub. Orada "Lady Sharm"ın böyük bir sexi aşkarlanıb. "Lady Sharm"ın mağazalarında tanınmış brend adı ilə satılan məhsulların müəyyən hissəsinin bu sexdə hazırlandığı məlum olub.

Bu arada "Lady Sharm" mağazalar şəbəkəsinin sahibləri haqda da məlumat almışıq. Bunlar Emin və Rövşən İsmayılov qardaşlarıdır. Onlar xaricdə olduqlarından əməliyyat zamanı həbsdən yayına biliblər. İşlərin əsas təşkilatçısı kimi isə Rövşən İsmayılovun adı çəkilir. Deyilənə görə, o, Dünya TV-nin birinin sahibinin kürəkənidir. Bu qardaşların hazırda Türkiyədə olduqları, hüquq-mühafizə orqanlarının çağırışlarına baxmayaraq, ölkəyə qayıtmadıqları bildirilir.

"Yeni Müsavat"a daxil olan məlumata görə, şəbəkənin rəhbər şəxsləri yaxın çevrələrinə bildiriblər ki, Azərbaycana gələ bilməyəcəkləri təqdirdə, Avropa ölkələrindən siyasi sığınacaq istəmək fikrinə düşə bilərlər. Özünü şirkətin rəhbəri kimi təqdim edən Aybəniz adlı xanım saytlara açıqlamasında şirkətin fəaliyyəti üçün pul verdiyini açıqlamışdı.

Sitat: "Pul mənimdir, amma heç bir sənəddə adım, imzam keçmir. İl yarım əvvəl məndə xərçəng xəstəliyi aşkarlandı, işçilərlə əlaqə saxladım və dedim ki, ölsəm pulum sizə halaldır, ölməyib qalsam gəlib haqq-hesabımızı çəkəcəyəm, işimiz davam edəcək. Onlar da gedib bu cür davam ediblər. Onlara dedim ki, mənim adım olan yerdə gərək belə etməyəydiniz. Türkiyədə bu, pis iş deyil, amma Azərbaycanda maddə veriblər. Bu, ticarətdir, vəzifə deyil. Onsuz da bundan sonra şöbələrin hamısını bağlayacam, bircə şöbə fəaliyyət göstərəcək".

Yerli saytlar yazır ki, Aybəniz xanım, sadəcə, işlərin başında dayanan şəxsdir, onun qabağa verilməsi də İsmayılov qardaşlarını istintaqdan kənar qoymağa hesablanıb.

"Lady Sharm" mağazalar şəbəkəsinin Bakıda ümumilikdə 16 ticarət nöqtəsi var, həmin nöqtələrdən biri "Gənclik Mall"da, digəri isə "28 Mall"da yerləşir.

"Lady Sharm"ın "Neftçilər" metrostansiyasının yaxınlığındakı mağazası dünəndən açılıb. Mağazanın satıcıları deyirlər problemlər artıq həll olunub, "Lady Sharm" işini davam etdirəcək.

Bu əməliyyat ümumilikdə tekstil biznesi ilə məşğul olan digər şəbəkələrdə də təlaş yaradıb. Ölkəyə tekstil mallarının böyük qismi Çin və Türkiyədən gətirilir. Çin bütün dünyada bu və ya digər mal, material, hazır məhsulun dublikatının, oxşarının hazırlanması ilə məşhurdur. Hətta məşhur "Disney Land"in belə oxşarını hazırlayıblar. Türkiyədə isə tekstil sənayesində dünyaca məşhur brendlərin mallarının hazırlanaraq eyni adla satılması da qanunla təqib olunan əməl deyil. Odur ki, Azərbaycandakı tekstil mal alveri ilə məşğul olan şəbəkə sahiblərinin təlaşı da başadüşüləndir. Sabah eyni ittihamla onlar da üzləşə bilərlər.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# "Azərsu" avtomobil qəzasına görə məhkəməyə verilə bilər

## Ekspert: "Burada əsas işi icra edən məsuliyyət daşıyır"

**Ötən həftə Babək prospektində "Azərsu" ASC-nin təmir işləri aparmaq məqsədilə qazdığı quyuya avtomobil düşməsi barədə məlumat vermişdik. Belə ki, hərəkətin sıx olduğu prospektə dərin yarğanın qazılması nəticəsində yolda hərəkətdə olan 99-CA-956 dövlət nömrə nişanlı "Mercedes" markalı avtomobil hərəkəti itirərək, çuxura aşmışdı.**

Hadisədən sonra sosial şəbəkədə statuslar yazılaraq qazıntını aparan "Azərsu" ASC qınanıldı. Bildirildi ki, qurum qazıntı aparan zaman müvafiq tədbirləri görməyib, qanuna müvafiq nişanları yerləşdirməyib. Bu səbəbdən də hərəkətdə olan sürücü çuxura düşüb. Hadisə nəticəsində avtomobil yararsız vəziyyətə düşüb, sürücü də xəsarət almışdı.

"Azərsu" ASC-dən "Yeni Müsavat"a bildirilib ki, yolda görülən işlər tamamilə yekunlaşıb və hər hansı problem yoxdur. Qurumdan həmçinin bildirildi ki, təmir işləri ilə bağlı müvafiq təhlükəsizlik tədbirləri görülüb: "Babək prospektinin köməkçi yolunda su xəttində baş vermiş qəzanın aradan qaldırılması ilə əlaqədar qazıntı işləri aparılıb. Qazıntı işləri aparılarkən, bütün tikinti və texniki normalara əməl olunub. Qazıntı aparılan sahənin yaxınlığında məlumatverici lövhə, xəbərdarlıq nişanları və qoruyucu lentlər qoyulub. Mətbuatda yayımlanmış fotoşəkillərdə də məlumatverici lövhələrin və qoruyucu vasitələrin mövcud olması əksini tapıb. Bu xəbərdarlıqedici vasitələr gecə saatlarında hərəkətdə olan bir nəqliyyat vasitəsi tərəfindən dağıdılıb. Bundan sonra hərəkətdə olan digər nəqliyyat vasitəsi - "Mersedes" markalı avtomobil xəndəyə düşüb. Hadisə yerinə dərhal "Azərsu" ASC-nin əməkdaşları və texnikası cəlb olunub. Xüsusi texnika vasitəsilə avtomobil xəndəkdən çıxarılıb".



**Bəs belə durumda sürücü qurumu məhkəməyə verə bilərmi?**

"Yeni Müsavat"a danışan **ekspert Ərşad Hüseynov** bildirib ki, hadisə yol-nəqliyyat hadisəsidir: "Qanunvericiliyin tələblərinə görə, yollarda nəqliyyat vasitəsinin istifadə prosesində yaranan və ziyan dəyməsi ilə nəticələnən belə hadisələr yol nəqliyyat hadisəsidir. Belə olan halda yol-nəqliyyat hadisəsi mütləq araşdırılmalıdır. Məndə olan məlumata görə, hadisədə sağlamlığa zərər də dəyib. Əgər belədirsə, bu, cinayət tərkibli hadisə də ola bilər və daha diqqətlə araşdırılmalıdır. Araşdırmanın nəticəsində isə bütün detallar müəyyən olunmalıdır. Araşdırmalıdır ki, işlər qanuna uyğun olub, ya yox. Eyni zamanda, işlər görülən zaman "Yol hərəkəti haqqında" qanunda nəzərdə tutulan hüququ əsaslara riayət olunubmu? Nişanlar, xətlər hamısı yerindəmi olub? Bütün bunların hamısı yoxlanmalıdır. Ümumiyyətlə, müəyyən etmək lazımdır ki, hadisə kimin səhvi nəticəsində baş verib. Əgər müəyyən edilsə ki, hadisə "Yol hərəkəti haqqında" qanunun 71-ci maddəsi pozulub, yaxud da işlər bağlı düzgün tədbirlər görülməyib, o zaman buna yol vermiş şəxslərin əməllərinə hüquqi qiymət verilməlidir. 71-ci maddəyə görə, yol işləri aparılarkən, habelə yolun zədələnmiş sahələrində təhlükəsiz və fasiləsiz hərəkəti təmin etmək məqsədi ilə aşağıdakı işarələrdən istifadə olunur: Yol işləri görülməsinə, onun xarakteri və davam etmə müddətindən asılı olaraq, yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırıldıqdan, xüsusi yol nişanlarının və ya işıq siqnallarının qurulmasından sonra başlanıla bilər.

İş aparılacaq sahələri aydın görünən stendlərlə, şlaqbaumlarla, ayırıcı dirəklərlə və ya digər xüsusi vasitələrlə işarə etmək lazımdır. Yuxarıda göstərilən vasitələr işıqqaytarıcı olmazsa, axşamlar qırmızı və narıncı rəngli daimi və ya sayrışan işıqlar quraşdırılmalıdır. Yolun zədələnmiş hissəsində hərəkəti nizamlamaq üçün xüsusi yol nişanları və işıq siqnalları quraşdırılır, zəruri hallarda isə yaranmış vəziyyətə uyğun olaraq yolun nişanlanması aparılır. Əgər vəziyyət tələb edərsə, yol hərəkəti yol fəhlələri tərəfindən nizamlanmalıdır.

Yol işlərinin aparılması müddətində qurulmuş xüsusi yol nişanları və ya işıq siqnalları saxlanılır, işlər qurtardıqda isə ilkin vasitələr bərpa edilir və zəruri olduqda yeni yol hərəkəti şəraitinə müvafiq olaraq dəyişikliklər edilir.

Yolun hərəkət hissəsində işləyən şəxs narıncı qolsuz paltar geyməlidir, gecə isə həmin geyim işıq qaytaran olmalıdır və yaxud onun üzərində işıqqaytarıcı elementlər nəzərdə tutulmalıdır. Yol işlərinin aparılması ilə əlaqədar hərəkətin bağlanılması və ya onun məhdudlaşdırılması, eləcə də işin aparıldığı yerin, yaxud zonanın nişanlanması dövlət standartı ilə müəyyən edilir. Daha sonra isə zərərçəkən də hüquqi olaraq zərərçəkən kimi tanınmalıdır. Ona hüquqları izah edilməlidir ki, siz dəymiş zərərin qarşılığında filankəsdən tələb edə bilərsiniz. Yardım göstərilmədir ki, zərərçəkənə dəymiş zərər ödənilsin".

Ekspert bildirib ki, burada əsasən işi icra edən məsuliyyət daşıyır: "Nişanlar da qanuna uyğun olaraq qazılan yerdən müvafiq məsafədə qoyulmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

# Vergilər Nazirliyi Cahangir Hacıyevə qarşı 1.7 milyon manatlıq iddia qaldırdı

## Nazirlik həmin vəsaitin sabiq bankirdən tutulub dövlətə ödənilməsini istəyir

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev, onun bacanağı İsmayıl Hidayət-zadə, sabiq deputat Dünyamin Xəlilov, Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qafarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Fariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**


Cahangir Hacıyev

“Report”un xəbərinə görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə elan olunub ki, təqsirləndirilən C.Hacıyevin hüquqlarını müdafiə etmək üçün daha bir vəkil - Fəxrəddin Mehdiyev qoşulub.

Hakim bildirib ki, zərərçəkmiş qismində “Azərbaycan Beynəlxalq Bankı” ASC, mülki iddiaçı qismində isə “Aqrarkredit” QSC bank olmayan kredit təşkilatı ilə Vergilər Nazirliyi tanınıb.

Daha sonra Vergilər Nazirliyinin nümayəndəsi 1 milyon 752 min 359 manatlıq mülki iddia qaldırdıqlarını elan edib. O, həmin pulun C.Hacıyevdən tutulub, dövlətin büdcəsinə köçürülməsini istəyib.

Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib, lakin iclasda fasilə yaranıb.

Məhkəmə iclası günün ikinci yarısında davam etdirilib.

Qeyd edək ki, rəsmi məlumata əsasən, aparılmış istintaqla 2001-2015-ci illərdə “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə “Azərbaycan Beynəlxalq Bankı” ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

Xatırladaq ki, C.Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il, D.Xəlilov 13 il və İ.Hidayət-zadə isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə D.Xəlilovun cəzası 13 ildən 12 il 9 aya, Ali Məhkəmə isə İ.Hidayət-zadənin cəzasını 5 ilə endirib.


Nurəddin Xoca

# Qazi baş redaktor ona qarşı cinayət işindən danışdı

## Nurəddin Xoca: “Prezidentimə müraciət edəcəm”

Qarabağ müharibəsinin iştirakçısı, “Bozqurd” batalyonunun komandiri və teref.info saytının baş redaktoru Nurəddin İsmayılovun (Nurəddin Xoca) barəsində başlanan cinayət işinin ibtidai istintaqı başa çatıb.

Report-un xəbərinə görə, barəsində Cinayət Məcəlləsinin 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar), 309-cu (vəzifə səlahiyyətlərini aşma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülmüş N.Xocanın ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət işi hakim Zeynal Ağayevin icraatına verilib. Məhkəmənin hazırlıq iclası fevralın 11-nə təyin edilib. İttiham aktına əsasən, N.Xoca vəzifə səlahiyyətlərini aşıb, vəzifə saxtakarlığı edib, saytında dövlət əleyhinə açıq çağırışlar edib.

Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan N.İsmayılov ittihamları qəbul etmədiyini bildirdi: “Həm gülməli, həm də ağlamalı cinayət işidir. İki yazıya görə cinayət işi açılıb. Halbuki hər iki yazı ”Yeni Müsavat" və reportyor-a istinadən verilib. Guya ər-arvad həmin yazıları oxuyanda əsəbiləşib şikayət ediblər. Onlar da guya buna əsasən cinayət işi açıblar. Bütün bunlar nə deməkdir? ”Yeni Müsavat"dan götürülmüş yazının başlığı belədir: “Etibar Priverdiyevin valyuta biznesi ortaya çıxdı-Sumqayıtda milyardlıq mayninq ferması tikdirib”. Reportyor.info-ya istinadən verilmiş yazının isə başlığı bu cürdür: “Azərenerji” yoxlanılır, Priverdiyev “işıq terroru” üçün dindirilir- “finski” korrupsiya.

İki yazıda dövlətə qarşı heç bir şey yoxdur. Yazıda o hissə var ki, Etibar Pirverdiyevə dövlət yüz milyonlarla pul ayırıb. Bu pullara görə Azərbaycanda tam şəkildə işıq təhlükəsizliyi olmalı idi. Ölkəmizdə bu təhlükəsizliyin olmamasına səbəb Etibar Pirverdiyevin milyonları basıb yeməsidir. Faktiki olaraq hər kəs gördü ki, Azərbaycan iki gün işıqsız qaldı. Prezidentimiz də iclasda hər şeyi dedi. Bundan əlavə, vəzifə səlahiyyətlərini aşma ittihamı da var. Ali Məhkəmənin qərarı var ki, jurnalistlər, baş redaktorlar vəzifəli şəxs deyil. Hansı vəzifə səlahiyyətlərini aşmışam, yaxud saxtakarlıq etmişəm? Bunların bəhanəsinə nəyin səbəb olduğunu heç özüm də anlamıram. Bizim dilimizdə hər bir sözün mənası var. Dövlətə qarşı çağırışlar etmək ittihamı da var. Çağırış etmək üçün demişəm ki, gəlin gedək nəsə edək? O məqalələri açın baxın, görün belə şeylər varmı? KİV haqqında qanunun 62-ci maddəsinin üçüncü bəndi var. Mətbuatda gedən və təkzib verilməyən məlumatlara onu dərc edən mətbu orqan məsul deyil. Cinayət işi ilə bağlı dövlətimə qarşı heç bir addım atmamışam. Özümü sona qədər qoruyacam. Prezidentimə müraciət edəcəm. Vəkilim Elçin Sadıqovdur. Mənə qarşı tam əsassız cinayət işi açılıb. İnanıram ki, bu, özfəaliyyətdir, prezidentin və yuxarı dairələrin xəbəri yoxdur. Bunlar göstərmək istəyirlər ki, guya işləyirlər. Mətbuat elə bir işdir ki, bu gün mənim üstümə gəlirlərsə, sabah digərinin üstünə gedəcəklər. Bunların qarşısını almaq lazımdır".

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

# Tale Bağırzadənin işgəncə iddiası təsdiqlənmir

**Novella Cəfəroğlu:** “Bu xəbəri ilk dəfədir eşidirəm”
**Mehman Sadıqov:** “Qobustan həbsxanasında heç kim heç kimi döymür”
**Səadət Bənəniyarlı:** “Biz belə siqnallar alanda mütləq araşdırırıq”


Novella Cəfəroğlu


Mehman Sadıqov


Səadət Bənəniyarlı

**Qobustan həbsxanasında cəza çəkən “Müsəlman Birliyi” Hərəkatının rəhbəri Tale Bağırzadənin günlər öncə səsləndirdiyi iddia barədə məlumat verilib. Hərəkat rəhbəri ailəsi ilə telefonla danışarkən həbsxanada ona işgəncə verildiyini bildirmişdi.**

İlahiyyatçı həmçinin həbsxanada onunla birgə cəza çəkən Cabbar Cabbarovun döyüldüyünü deyib. O, hətta məhbusu həbsxananın rəisi Aftandil Ağayevin şəxsən özünün döydüyünü söyləyib.

Sosial şəbəkələrdə isə “Müsəlman Birliyi”nin tərəfdarları, eləcə də müxalif kəsim T.Bağırzadə və onunla birlikdə Qobustan həbsxanasında cəza çəkən məhbuslara orada qeyri-insani davranışların olduğunu bildirirlər.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** T.Bağırzadənin dediklərini ilk dəfə bizdən eşitdi: “Bu xəbəri ilk dəfədir eşidirəm. Hətta onların Qobustanda cəza çəkdiklərini belə indi sizdən eşidirəm. Onlar Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmət üzrə İctimai Komitəyə müraciət etsinlər. Komitə üzvləri də bundan sonra Qobustana gedib onu görə bilərlər. Məsələ ilə yaxından maraqlanacağıq. Nə xəbər alsaq, sizlərə məlumat verəcəyik”.

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin mətbuat katibi Mehman Sadıqov** yayılan məlumatları təkzib etdi: “Qobustan həbsxanasında bütün məhbusların ümumi saxlanma şəraitləri eynidir. Orada kimlərin, hansı kontingentin saxlanıldığını hər kəs bilir. Orada hər hansı bir məhbus üçün imtiyazlı şərait ola bilməz. Hamı üçün şərait eynidirsə, adını çəkdiyiniz şəxs üçün də eyni şəraitdir. İşgəncələrlə bağlı deyilənlərə gəldikdə isə, bununla bağlı dəfələrlə açıqlamalar vermişik. Qobustan həbsxanasında yeganə tələb odur ki, daxili intizam qaydalarına əməl olunsun. Məhbuslara aid nə hüquqlar varsa, hamısı yerinə yetirilir. İşgəncələrlə bağlı onların nə deməyi heç nəyi həll etmir. Orada bu məsələlərə ciddi nəzarət olunur. Qobustan həbsxanasında heç kim heç kimi döymür. Sadəcə olaraq, orada qanunvericiliyə ciddi nəzarət olunur. Bu, hər hansı bir məhbusun xoşuna gəlmirsə, bu onun problemidir”.

**Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmət üzrə İctimai Komitənin üzvü Səadət Bənəniyarlı isə “Yeni Müsavat”a bunları dedi:** “Adını çəkdiyiniz şəxs kimə müraciət edibsə, xəbərimiz yoxdur. İstəyərdim ki, bu məlumat daha dəqiq olsun. Tale Bağırzadə kimə nə deyibsə, tam açıqlansın, mən də komitədə məsələni qaldırım. Ondan sonra monitorinq həbsxanaya baş çəkməyə gedəcək və Tale Bağırzadənin özü ilə şəxsən görüşəcək. Biz belə siqnallar alanda mütləq araşdırırıq. Əgər təcili olursa, aidiyyəti qurumlara sorğu da veririk. Hər hansı bir hadisə baş veribsə, dərhal məlumat çatdırılsın. Tale Bağırzadənin ailə üzvlərindən kimlərsə bizimlə görüşsün, ətraflı, dəqiq məlumat versinlər. KİV-lərdə məlumatlar yayılırsa, rəsmi qurumların buna reaksiya verməmələri mümkünsüzdür. Qobustan həbsxanasında kimlərə qarşı hansı addımların atıldığı barədə adlar verilsin, biz də onu araşdıraq. Mən İctimai Komitədən monitorinq qrupunun həbsxanaya getməsinə çalışaram. Müraciəti çalışdıqca tez etsinlər”.

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

# Üç yaşlı Aylinin müalicə pulunu oğurlayan ələ keçdi



**Bir müddət öncə leykoz xəstəliyindən əziyyət çəkən üç yaşlı Aylin Dadaşovanın müalicəsi üçün yığılan pulları ələ keçirən şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.**

Bu barədə Baku TV-yə azyaşlının anası Rahilə Dadaşova məlumat verib.

Belə ki, hesabdan pulu çıxaran şəxs - Ramil Rüstəmov Azərbaycan vətəndaşıdır.

Rahilə Dadaşova pulun geri qaytarılmasına sevinsə də, uşağın səhhətində yaranan digər problemlərə görə həkimlər onun müalicəsini dayandırıb. Anası deyir ki, Aylinin sağalması üçün 70 min dollar pula ehtiyac var.

Qeyd edək ki, bir müddət öncə Moskvada yaşadığı deyilən azərbaycanlı şəxs ailəyə yardım məqsədilə onları aldadaraq, hesabda olan bütün pulları ələ keçirmişdi.




## Bakcell abunəçilərinə təqdim olunan eksklüziv endirim və imtiyazlar gündən-günə artır

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin ən genişmiqyaslı loyallıq proqramını həyata keçirməklə öz abunəçilərini eksklüziv endirimlər və imtiyazlarla təmin etməyə davam edir.**




Artıq 5 ildən çoxdur ki Azərbaycanda ən uğurlu loyallıq proqramlarından biri hesab olunan "Ulduzum"un geniş partnyor şəbəkəsi 270 yerli və beynəlxalq tərəfdaşın 400-dən artıq satış və xidmət nöqtəsindən ibarətdir və bu göstərici gündən günə artmaqdadır.

"Ulduzum" proqramının ən aktiv və populyar tərəfdaşları siyahısında yer alan "158 Taxi" xidməti və "Pierre Cardin" mağazalar şəbəkəsi ötən ilin oktyabr ayından başlayaraq istifadəçi sayının artımı üzrə yüksək templər nümayiş etdirirlər.

2018-ci ilin oktyabr ayından bəri "Ulduzum" proqramının tərəfdaşı olan "Pierre Cardin" mağazalar şəbəkəsinin təklif etdiyi kampaniyadan təkcə son 3 ay ərzində min nəfərdən çox Bakcell abunəçisi yararlanıb. "Ulduzum" istifadəçilərinə Pierre Cardin mağazalarında yeni kolleksiyaya 10%, 50%-dək endirimli məhsullara isə 5% endirim təqdim olunur.

"Pierre Cardin", "Karaca" və "Roman" brendləri olaraq "Ulduzum" ilə əməkdaşlıqdan çox razıyıq. Ulduzum proqramı həm texniki həm də marketinq baxımından Azərbaycanda ən inkişaf etmiş proqramlardan biridir. Həmçinin proqram vasitəsilə biz də öz müştərilərimizin loyallığını artıraraq, onlara maraqlı kampaniyalar təqdim etmiş oluruq. Əməkdaşlığımız zamanı müxtəlif kanallar vasitəsilə brendimiz təşviq olunur və daha çox kütləyə tanınır. Proqram çərçivəsində Ulduzumun dəstəyi ilə müştərilərimiz ilə əlaqəmiz daha da möhkəmlənir" deyə "Pierre Cardin", "Karaca" və "Roman" mağazalarının rəhbəri Onur Efe qeyd edib.

2018-ci ilin oktyabr ayından etibarən "Ulduzum" tərəfdaşı olan "158 Taxi" xidmətinin xüsusi təklifindən qısa müddət ərzində min nəfərdən çox Bakcell istifadəçisi yararlanıb. Xüsusi kampaniyanın şərtlərinə əsasən "Ulduzum" kodu vasitəsilə sifariş olunmuş hər 5 gedişdən sonra abunəçilərə 1 PULSUZ gediş təqdim edilir.

"Hər bir Ulduzum istifadəçisi 158 Taxi sifariş verərkən pulsuz gedişlər qazana bilər. Bunun üçün əsas şərt müştərinin Ulduzum istifadəçisi olmasıdır. Pulsuz gedişlər 158 TAXI müştəriləri üçün olduqca cəlbedici və effektivdir. Kampaniyanın, yalnız Ulduzum istifadəçilərinə şamil edilməsi isə rəqabət şəraitində müştərilər arasında səmərəli seçim şansı yaradır. Bakcell şirkəti ilə uğurlu əməkdaşlıq qurmaqdan böyük məmnuniyyət duyuruq. Düşünürük ki, bu əməkdaşlığın davamlı olması rəqabətli bazar mühitində atılan səmərəli addımlardan biridir" deyə "158 Taxi" xidmətinin Müştəri Marketinqi üzrə meneceri İbrahim Osmanov bildirib.

Bu günə kimi "Ulduzum" loyallıq proqramına 3 milyondan artıq Bakcell abunəçisi qoşulub. Proqramın istifadəçiləri populyar restoran və otellər, nüfuzlu geyim, parfümeriya və elektronika mağazaları ilə yanaşı, sağlamlıq, idman və əyləncə mərkəzləri, ən populyar kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderləri və digər sahələrdə fəaliyyət göstərən tərəfdaşlarımızın təklif etdiyi özəl kampaniyalar və endirimlərdən yararlanmaq imkanına malikdirlər.

Hər bir Bakcell müştərisi "Ulduzum"a qoşula bilər. Bunun üçün heç bir abunə haqqı tələb edilmir. Loyallıq proqramında iştirak etmək üçün "1" rəqəmini 5555 nömrəsinə SMS vasitəsilə göndərmək kifayətdir. Ulduzum barədə daha ətraflı məlumat www.ulduzum.az ttp://www.ulduzum.az səhifəsində əldə oluna bilər.

## Məşhəddə əxlaqsızlıqla məşğul olan 40 masajçı saxlanıldı

İranın şərqində Məşhəd şəhərində 40 masajçı saxlanılıb.

Trend-in məlumatına görə, bunu İranın Rəzəvi Xorasanı vilayəti hüquq-mühafizə orqanının polis rəisi polkovnik Ümid Nudehi deyib.

Ü.Nudehinin sözlərinə görə, sosial-ictimai şəbəkələrdə aparılan araşdırmadan sonra bir qrup kişi və qadın masajçının reklamları müşahidə olunub.

Polis rəisi əlavə edib ki, keçirilən əməliyyatlar nəticəsində 40 nəfər saxlanılıb:

"Saxlanılanlar 22-32 yaşlar arasında gənclərdir. Onlar masaj adı altında əxlaqsızlıqla məşğul olublar".

## Bakıda qəbiristanlıqda kişi meyiti tapılıb

**Qaradağ Rayon Prokurorluğundan "Report"a verilən məlumata görə, fevralın 3-də Bakının Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən qəbiristanlığın yaxınlığında naməlum kişi meyitinin aşkar olunması ilə bağlı prokurorluğa məlumat daxil olub.**

Daxil olan məlumat əsasında polis və prokurorluq əməkdaşlarının iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Meyitin xarici müayinəsi zamanı onun üzərində hər hansı zorakılıq əlamətləri aşkar edilməyib. Polis və prokurorluq əməkdaşlarının birgə həyata keçirdikləri təxirəsalınmaz tədbirlər nəticəsində meyiti tapılan şəxsin, 1972-ci il təvəllüdlü Məmmədov Rasim Oruc oğlu olması müəyyən edilib.

Faktla bağlı Qaradağ Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

## Üstündə silah və narkotik gəzdirən şəxs saxlanıldı

**Gəncə sakinindən silah və narkotik maddə aşkarlanıb.**



ARB TV xəbər verir ki, Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş, 31 yaşlı Orxan Əliyev saxlanılaraq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilib.

Onun üzərinə baxış keçirilən zamanı sandıqçasında 5 ədəd patron olan "Makarov" tipli tapança, əlindəki sellofan torbada isə 1 kiloqram 211 qram çəkidə narkotik vasitə olan qurudulmuş marixuana və 411 qram şəkidə narkotik vasitə hesab edilən tiryək aşkar olunaraq götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

## Qafqazın "qaz kralı" ilə oğlu 3 nəfərin qətlində təqsirləndirilir-Həbsin təfərrüatı

**Qaraçay-Çərkəz Respublikasının senatorunun atası, Qafqazın "qaz kralı" adlandırılan Raul Araşukovun həbsinin bəzi detalları məlum olub.**



"Qafqazinfo" xəbər verir ki, bu barədə respublika rəhbərliyinin yüksək rütbəli mənbəsi "Lenta.ru"ya məlumat verib.

Onun sözlərinə görə, yanvarın 30-u həbs edilən Raul Araşukov və senator oğlu Rauf Araşukov 3 nəfərin qətlində şübhəli bilinir. Mənbə bildirir ki, Araşukov klanının sifarişi əsasında 1990-cı ilin sonlarında Donetskdə biznesmen Boris Xapsirikov, 2006-cı ildə Çerkessk İstintaq Təcridxanasının rəisi Həsən Canayev və elə həmin ildə Rusiya Prezident Administrasiyası rəhbərinin köməkçisinin mühafizə xidmətinin başçısı Əli Afaunov öldürülüb. Adı gizli tutulan mənbə vurğulayır ki, sifarişli qətllər barədə söhbət Araşukovların yaxın ətrafı tərəfindən məclislərin birində olub.

Qeyd edək ki, "qaz kralı" Raul Araşukovla birgə oğlu, Qaraçay-Çərkəz Respublikasının senatoru Rauf Araşukov da yanvarın 30-da saxlanılıb. Senator adam öldürtməklə yanaşı, 30 milyard rubldan çox məbləğdə qaz oğurluğunda da ittiham olunur. Onun haqqında 2 aylıq həbs-qətiimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 27 (7197) 5 fevral 2019

**İsrailin baş naziri Benyamin Netanyahu növbəti dəfə İranı təhdid edib. Hazırda baş nazir postu ilə yanaşı, xarici işlər və müdafiə naziri vəzifələrini də tutan Netanyahu deyib ki, onlar İranın harada, nə etdiyini yaxşı bilir və bütün vasitələrlə onun aqressiv planlarına qarşı addım atacaqlar.**

# Netanyahu yenə İranı hədələdi - 3 səbəb

## İsrail baş nazir aprel seçkilərinə hazırlaşır, "xarici təhdid" faktoru bu dəfə əleyhinə işləyə bilər

Qeyd edək ki, İran İslam İnqilabının 40 illiyi ilə bağlı Tehranda keçirilən mərasimdə İran ordusu rəsmiləri yeni hava-yer tipli "Huveyzə" adlı raketlərini təqdim edib. İRNA-nın xəbərinə görə, raketin nümayiş olunduğu sərgidə çıxış edən İranın müdafiə naziri Əmir Hatəmi yeni raketin imkanları barədə danışıb. Nazir deyib ki, bu raket analoqlarından atəş üçün daha tez hazır olması, alçaqdan uçması səbəbilə radarlar tərəfindən qeydə alınmasının çətinliyi, naviqasiya həssaslığı və böyük dağıdıcı gücə malik olmasını göstərib.

İsrail baş naziri Tehranda nümayiş olunan yeni silahları qəsd edərək İslam Respublikası rəhbərliyini növbəti dəfə hədələyib.

"İran İslam İnqilabının 40 ilini qeyd edir və yeni raketlə lovğalanmağa çalışırlar. Tehran hakimiyyəti İsrail dövlətini məhv etmək niyyətini açıq şəkildə bəyan edir. Harada nə etdiyinizi bilirik. İsrailin təhlükəsizliyini və gələcəyini təmin etmək üçün İrana qarşı bütün vasitələrlə fəaliyyət göstərməyə davam edəcəyik".

Xatırladaq ki, ötən həftə İran İslam İnqilabının 40 ili münasibəti ilə daha bir yeni silahı, 1300 kilometrlik məsafəni qət edə bilən qanadlı raketini təqdim edib. "Reuters"in məlumatına görə, ABŞ-ın etirazı və Avropa dövlətlərinin narahatlığına baxmayaraq, İran raket proqramının genişləndirilməsi istiqamətində növbəti addım atıb.



Tehran dəfələrlə bəyan edib ki, raket proqramı yalnız özünümüdafiə məqsədi daşıyır. Yer-yer tipli bu raket 2015-ci ildə İran ordusuna verilmiş "Soumar" adlı qanadlı raketlər ailəsindəndir. İran inqilab qvardiyası aerokosmik diviziyasının komandanı Əmirəli Hacizadə bildirib ki, yerli mühəndislər qanadlı raketlər üçün lazım olan reaktiv mühərriklərlə bağlı problemləri artıq aradan qaldırıb. Onun sözlərinə görə, İran hazırda lazım olan bütün silahları istehsal edə bilər.

Ancaq aydın məsələdir ki, Netanyahunun bəyanatı yalnız İrandan İsrailə qarşı təhlükənin artması ilə bağlı deyil. Hər iki dövlət arasında qarşılıqlı ittihamlar davam edir. Ötən ay İsrail növbəti dəfə İranın Suriyadakı hərbi birliklərini havadan bombalayıb və bundan sonra baş nazir Benyamin Netanyahu bildirib ki, İran Suriyadakı hərbçilərini və hərbi təchizatını bu ölkədən çıxarmasa İsrail İran mövqelərini vurmaqda davam edəcək.

İran İnqilab Keşikçiləri Korpusu ("Sepah") komandanı general Məhəmməd Əli Cəfəri isə İsrail baş nazirinin ittihamlarına cavab olaraq deyib ki, İran ordusu Suriyada qalacaq. "Sepah" komandiri deyib ki, rəsmi Tehranın vurğuladığı kimi, İranın Suriyada hərbi bazası yoxdur, lakin hərbi təlimatçılar, müşavirlər və eləcə də silahları var. Və Suriyada İran qüvvələrinin olmadığı dedikdə məhz bazaların olmaması qəsd edilir.

Qeyd edək ki, xüsusən də ABŞ ordusunun Suriyadan çıxarılması ilə bağlı Trampın qərarı elan olunduqdan sonra İsrail rəsmiləri İranın Suriyadakı mövcudluğu məsələsini gündəmə gətirirlər. İsrail tərəfi ABŞ ordusu çıxdıqdan sonra İran və Hizbullahın Suriyada da daha da fəallaşacağından narahatdır.

Bu məsələnin daha pis tərəfi odur ki, Suriyada münaqişə başa çatmaq üzrədir və Bəşər Əsəd hakimiyyətini qoruyub saxlamış kimi görünür. Bu şərtlərdə savaşın bitməsi İsrail üçün təhlükəlidir. Ötən ilin noyabrında baş verən Qəzza əməliyyatı göstərdi ki, "ərəb baharı" prosesində Fələstindəki silahlı qruplar daha da güclənib silah və döyüş təcrübəsi qazanıb. Belə bir vəziyyətdə İsrailin əsas müttəfiqi olan ABŞ-ın Suriyanı tərk etməsi Təl-Əvəvin maraqlarına ziddir.

Bir qədər əvvəl isə İsrail strateji araşdırma mərkəzlərinin yaydığı hesabatda İsrailin 2019-cu ildə qarşılaşa biləcəyi mümkün problemlər sırasında ən ciddi təhdidin İran, Suriya və Hizbullahla baş verəcək müharibə olduğunu qeyd edib. Bundan əlavə, müharibə başlayacağı təqdirdə İsrailin HƏMAS-la da döyüşmək məcburiyyətində qalacağı bildirilib. Hesabatda ABŞ prezidenti Donald Trampın əsgərlərini Suriyadan geri çəkməsindən sonra İsrailin İrana girməsinə ehtiyac yaranacağı vurğulanıb.

Ancaq İsrail dövlətini narahat edən əsas məsələ heç də İranla birbaşa qarşıdurma deyil, İranın Fələstindəki Həmas, "İslami Cihad" və ya Livandakı Hizbullah, eləcə də Suriyadakı silahlı qruplara verdiyi dəstəkdir. İran "müqavimət cəbhəsi" adlandırdığı İsrailə qarşı olan bu qrupları silahlandırır. Hal-hazırda faktiki olaraq İsrail üçün təhlükə yaradan məhz bu qruplardır.

İsrail hakimiyyəti isə buna qarşı hətta Suriyada savaşın gedişində Bəşər Əsədə və Hizbullaha qarşı savaşan islamçı qruplara zaman-zaman dəstək verib və bunu gizlətməyib. Hazırda nə Misir, nə Fələstinin leqal hakimiyyəti olan Fəth Hərəkatı, nə də digər ərəb hakimiyyətləri İsraillə açıq qarşıdurma vəziyyətində deyil. Bu səbəbdən də Netanyahu sərhəddəki silahlı qrupları deyil, onların dəstəkçisi İranı hədəf olaraq göstərir.

Netanyahunun İrana qarşı təhdidinin daha bir səbəbi isə apreldə keçiriləcək seçkilərdir. Məsələ ondadır ki, ötən seçkilərdən sonra keçən dövr ərzində bir siyasətçi kimi Netanyahunun reytinqi xeyli aşağı düşüb. Hətta ötən ilin noyabrında onun hökumət koalisiyasında olan müdafiə naziri Aviqdor Liberman koalisiyadan çıxıb. Bundan sonra Netanyahu XİN rəhbəri postu ilə yanaşı müdafiə naziri vəzifəsini də götürməli olub. Bundan başqa, baş nazir özü və həyat yoldaşı bir neçə dəfə korrupsiya ittihamı ilə dindirilib. Ən əsası radikal şüarlarla hakimiyyətə gələn Netanyahu, demək olar ki, heç nəyə nail olmayıb, ən son olaraq ötən ilin noyabrında Qəzzada başlatdığı əməliyyatı uğursuz olub və hökuməti Həmasa sülh təklif edib. Bütün bunların fonunda hazırkı baş nazirin qalib gəlməsi şansları çox azdır. Lakin bütün sağçı liderlər kimi Netanyahunun qalib gəlməsi üçün ciddi xarici təhlükə olmalıdır. Bu təhlükə isə indi İrandır. Bu səbəbdən də baş nazir indi tez-tez İranı xatırladır. Lakin bunun həm də mənfi tərəfləri ola bilər, çünki rəqibləri bu təhdirlərdən daha da böyük güc alırlar. Bu isə apreldə İsrail seçiciləri tərəfindən əks reaksiya ilə qarşılana bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yenì Müsavat"**

# Papanın Ərəbistan yarımadasına ilk səfəri

## Uzun illərdən sonra Roma Papası İslamın meydana çıxdığı regiona gedir, dinlərarası sülh olacaqmı?

**Roma Papası Roman Katolik Kilsəsinin lideri kimi ilk dəfə İslamın vətəni Ərəbistan yarımadasına səfər edib. Papa Fransis fevralın 5-də BƏƏ-də keçiriləcək dini mərasimdə iştirak edəcək.**



Paytaxt Əbu Dabidə baş tutacaq "İnsan Qardaşlığı Toplatısı" adlı dinlərarası konfransda Papa Fransis və Misirin min yaşı olan Əl-Əzhər sünni qrupunun lideri Əhməd Tayeb bazar ertəsi çıxış edəcək. Toplantıya müsəlmanlar, xristianlar və yüzlərlə yəhudi, hindu, bütpərəst və digər dinlərin təmsilçiləri qatılacaq. Papanın çərşənbə axşamı onun Romaya qayıdacağı gözlənilir.

"Amerikanın səsi" xəbər verir ki, Vatikanı tərk etməzdən əvvəl Roma Papası Yəməndəki humanitar böhranı dərin narahatlıqla yaxından izlədiyini deyib və tərəfləri beynəlxalq razılıqların şərtlərinə əsasən iztirab içində olan insanları ərzaqla təmin etməyə çağırıb.

Birləşmiş Ərəb Əmirliklərində bir milyona yaxın katolikin yaşadığı ehtimal olunur. Onların əksəriyyəti Filippin və Hindistandan olan miqrantlardır.

Bu gün BƏƏ-də təşkil olunacaq dini mərasimdə 135 min insanın iştirakı gözlənilir. Bu, Ərəbistan yarımadasında ən böyük xristian mərasimlərindən biri olacaq. Qeyd edək ki, Ərəbistan yarımadasında yeganə kilsə məhz BƏƏ-də yerləşir. Bu da adıçəkilən ölkədə müxtəlif inanclardan, o cümlədən xristianların yaşaması ilə əlaqədardır. Ümumilikdə isə Roma Papası papalıq tarixində ilk dəfə Ərəbistan yarımadasına səfər edir. Məlum olduğu kimi, Ərəbistan yarımadası sonuncu səmavi dinin - İslamın meydana çıxdığı coğrafiyadır. Məlum səbəblərdən uzun bir dövr ərzində xristianlıq və İslam arasında səlib yürüşlərinə qədər gedib çıxan düşmənlik olub. Baxmayaraq ki, İslam dinində xristianlığın peyğəmbəri Həzrət İsa Quranda adı hörmətlə çəkilən Allah elçisidir. Ancaq indi zaman dəyişib və Roma Papalarının da ön sırada olduğu dinlərarası dialoq fəaliyyəti bütün dünyada geniş vüsət alıb. Yeri gəlmişkən, Roma papaları iki dəfə səfər edib. Birinci dəfə Papa 2-ci İohan Pavel 2002-ci ildə, hazırkı Papa Fransisk isə 2016-cı ildə Bakıya səfər edib.

Yeri gəlmişkən, Roma Papalığının (Vatikan) dinlərarası dialoq idarəsinin fransız kardinalı Jan Luis Tauran 2018-ci ilin aprel ayında Səudiyyə Ərəbistanına səfər edib. Hətta bu səfərdən sonra Krallıq ərazisində kilsə tikiləcəyi xəbərləri yayılsa da, sonradan bu məlumat təkzib olunub.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yenì Müsavat"**



# İtaliya Avropa İttifaqının Venesuela ilə bağlı bəyanatını blokladı

**İtaliya Avropa İttifaqının (Aİ) Venesuela parlamentinin sədri Xuan Quaydonun ölkənin müvəqqəti prezidenti kimi tanınması ilə bağlı bəyanatını bloklayıb. Bu barədə RİA "Novosti"yə Brüsseldəki diplomatik mənbə bildirib.**

"İtaliya 31 yanvar - 1 fevral tarixlərində Buxarestdə keçirilən Aİ ölkələrinin xarici işlər nazirlərinin qeyri-rəsmi görüşündə Avropa diplomatiyasının başçısı Federika Mogerininin Aİ-nin X.Quaydonu prezident kimi tanıması barədə səsləndirdiyi bəyanata veto qoyub", - mənbə deyib.

Onun sözlərinə görə, bundan sonra Aİ və Uruqvay Venesuela üzrə beynəlxalq kontakt qrupunun ilk nazirlər iclasının anonsunu verib. İclas fevralın 7-də Montevideoda keçiriləcək.

Daha əvvəl Avropa Parlamenti Xuan Quaydonu Venesuelanın qanuni müvəqqəti prezidenti kimi tanıyıb və Aİ ölkələrini analoji qərar verməyə çağırıb.

YENİ MÜSAVAT

# Son səhifə

N 27 (7197) 5 fevral 2019




























**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**BUĞA** - Havaların şıltaqlığını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Əlalxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin. Əcnəbilərlə iş görməyin.

**QIZ** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə sizdə səhhətlə bağlı problem yarada bilər. Bu səbəbdən də qayğınıza qalmağa çalışın. Ayaq nahiyənizə xüsusi diqqət ayırın. Qalan sahələrdə normallıq olacaq.

**ƏQRƏB** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**OXATAN** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**OĞLAQ** - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**BALIQLAR** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**



Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.755